# YƏHYANIN
# NƏQL ETDİYİ MÜJDƏ

## GİRİŞ

*«Yəhyanın nəql etdiyi Müjdə»* İsanı Allahın əbədi Kəlamı kimi təqdim edir. «Kəlam bəşər olub, lütf və həqiqətlə dolu olaraq aramızda məskən saldı» (1:14).

Kitabda göstərildiyi kimi bu Müjdə elə yazılıb ki, oxucular İsanın vəd olunmuş Xilaskar və Allahın Oğlu olduğuna iman edərək Onun adı ilə həyata malik olsunlar (20:31).

İsanı Allahın əbədi Kəlamı kimi təqdim edən birinci ayələrdən sonra Müjdədə müxtəlif möcüzələr barəsində nəql edilir. Bu möcüzələr İsanın vəd olunmuş Xilaskar və Allahın Oğlu olduğunu göstərir. Bunlar göstərilən möcüzələri izah edən nitqlərlə müşayiət olunur. Kitabın bu hissəsi bəzi adamların İsaya necə inandığını və Onun ardıcılları olduğunu, digərlərininsə Ona qarşı durduğunu və Ona inanmadığını göstərir. 13-17-ci fəsillərdə isə İsanın həbs olunduğu gecə şagirdləri ilə yaxın ünsiyyəti və geniş söhbəti qələmə alınıb. İsa çarmıxa çəkilməmişdən öncə şagirdlərinə təsəlli verir və onları ruhlandırır. Son fəsillər isə İsanın həbs və məhkum olunması, çarmıxa çəkilməsi, dirilməsi və diriləndən sonra şagirdlərə görünməsini təsvir edir.

Yəhya Məsih vasitəsilə bəxş olunan əbədi həyat yolunu göstərir. Bu, İsaya yol, həqiqət və həyat kimi iman edənlərə verilir. Yəhyanın Müjdəsini fərqləndirən cəhət odur ki, su, çörək, çoban və qoyunlar, meynə və üzüm kimi ifadələrlə İsa ruhani dəyərləri açıqlayır.

***Kitabın məzmunu:***

1:1-18 İsa Allahın Kəlamıdır
1:19-51 Vəftizçi Yəhyanın şəhadəti və İsanın ilk şagirdləri
2:1-12:50 İsanın ictimai xidməti
13:1-19:42 İsanın Yerusəlimdəki son günləri
20:1-31 Rəbbin dirilməsi və insanlara görünməsi
21:1-25 Rəbbin Qalileyada təkrarən görünməsi

***Allah Kəlamı***

1 1Başlanğıcda Kəlam var idi.
Kəlam Allahla birlikdə idi. Kəlam
Allah idi. 2O, başlanğıcda Allahla
birlikdə idi. 3Hər şey Onun vasitəsilə
yarandı və yaranan şeylərdən heç biri
Onsuz yaranmadı. 4Həyat Onda idi və
bu həyat insanların nuru idi. 5Nur
qaranlıqda parlayır, qaranlıq isə onu

John Lat:Azeri Bible Cyrillic 16.01.2009 12:24 Page 130



bürüyə bilmədi.
**6**Allahın göndərdiyi bir adam
ortaya çıxdı, onun adı Yəhya idi. **7**O,
şəhadət üçün gəldi ki, Nur barədə
şəhadət etsin və hamı onun vasitəsilə
iman etsin. **8**O özü Nur deyildi, amma
Nur barədə şəhadət etmək üçün gəldi.
**9**Bu, həqiqi Nur idi və dünyaya gələrək
hər bir insanı işıqlandırırdı. **10**O,
dünyada idi, dünya Onun vasitəsilə
yarandı, amma dünya Onu tanımadı.
**11**Öz diyarına gəldi, amma soydaşları
Onu qəbul etmədi. **12**Lakin Onu qəbul
edənlərin hamısına, adına iman edən-
lərə Allahın övladları olmaq ixtiyarını
verdi. **13**Onlar nə qandan, nə bəşər
arzusundan, nə də kişi istəyindən
deyil, yalnız Allahdan doğuldu.

**14**Kəlam bəşər olub, lütf və həqiqət-
lə dolu olaraq aramızda məskən saldı;
biz də Onun ehtişamını – Atadan gələn
vahid Oğulun ehtişamını gördük.
**15**Yəhya Onun barəsində şəhadət etdi
və nida edib dedi: «“Məndən sonra
Gələn məndən üstündür, çünki mən-
dən əvvəl var idi” deyib haqqında
danışdığım Şəxs budur». **16**Hamımız
Onun bütövlüyündən lütf üstünə lütf
aldıq. **17**Qanun Musa vasitəsilə verildi,
lütf və həqiqət isə İsa Məsih vasitəsilə
gəldi. **18**Allahı heç kəs heç vaxt gör-
məyib, amma Atanın qucağında olan
və Allah olan[a] vahid Oğul Onu tanıtdı.

### *Yəhyanın şəhadəti*

*(Mat. 3:1-12; Mark 1:1-8; Luka 3:1-18)*

**19**Yəhudi başçıları Yəhyadan «Sən
kimsən?» deyə soruşmaq üçün Yeru-
səlimdən kahinlərlə Levililəri onun
yanına göndərdilər. O zaman Yəhya
belə şəhadət etdi: **20**o, düzünü deyib
inkar etmədi və «mən Məsih deyiləm»
deyə bəyan etdi. **21**Onlar Yəhyadan
soruşdular: «Bəs sən kimsən? Bəlkə
İlyassan?» Yəhya «xeyr, o deyiləm»
dedi. Soruşdular: «Bəlkə gəlməli olan
peyğəmbərsən?» Yəhya «xeyr» söylə-
di. **22**Sonra ona dedilər: «Bəs sən kim-
sən? Bizi göndərənlərə nə cavab verək?
Özün barədə nə deyirsən?» **23**Yəhya
dedi: «Mən Yeşaya peyğəmbərin söy-
lədiyi kimi

“Rəbbin yolunu düz edin”

deyə səhrada nida edənin səsiyəm».

**24**Göndərilən bəzi fariseylər **25**Yəh-
yadan soruşdular: «Bəs sən Məsih,
İlyas yaxud gəlməli olan peyğəmbər
deyilsənsə, nə üçün vəftiz edirsən?»
**26-27**Yəhya onlara cavab verdi: «Mən
su ilə vəftiz edirəm, amma aranızda
məndən sonra gələn[b] tanımadığınız bir
Nəfər dayanıb. Mən Onun heç çarığı-
nın bağını açmağa da layiq deyiləm».
**28**Bu hadisələr İordan çayının o tayın-
da olan Bet-Anyada, Yəhyanın vəftiz
etdiyi yerdə baş verdi.

**29**Ertəsi gün Yəhya İsanın ona tərəf
gəldiyini görüb dedi: «Dünyanın güna-
hını aradan götürən Allah Quzusu
budur! **30**“Məndən sonra bir Şəxs gəlir
ki, məndən üstündür, çünki məndən
əvvəl var idi” deyib haqqında danış-
dığım Kəs budur. **31**Özüm Onu tanı-
mırdım, amma Onun İsrailə zahir
olması üçün mən su ilə vəftiz edərək
gəldim». **32**Yəhya şəhadət edib dedi:
«Gördüm ki, Ruh göydən göyərçin
kimi endi və Onun üzərində qaldı.
**33**Özüm Onu tanımırdım, lakin su ilə
vəftiz etmək üçün məni göndərənin

---

a **1:18** *Və Allah olan* – bəzi əlyazmalarda bu sözlər yoxdur.
b **1:26-27** *Məndən sonra gələn* – bəzi əlyazmalarda *məndən sonra gələn, amma məndən əvvəl var olan.*
**1:6** *Mat. 3:1-2; Mark 1:4; Luka 3:1-2* **1:21** *Qanun. 18:15,18; Mal. 4:5* **1:23** *Yeş. 40:3*

John Lat:Azeri Bible Cyrillic 16.01.2009 12:24 Page 131



Özü mənə dedi: "Ruhun kimin üzərinə
enib qaldığını görsən, bil ki, Müqəddəs
Ruhla vəftiz edən Odur". 34Mən də
görüb "Allahın Oğlu budur" deyə şə-
hadət etmişəm».

### *İsanın ilk şagirdləri*

35Ertəsi gün yenə Yəhya orada idi.
Şagirdlərinin ikisi onun yanında idi.
36İsa yoldan keçərkən Yəhya Ona
baxıb dedi: «Allah Quzusu budur!»
37Həmin iki şagird onun sözlərini
eşidib İsanın ardınca getdi. 38İsa dö-
nüb ardınca gəldiklərini görərək on-
lara «Sizə nə lazımdır?» dedi. Onlar
İsaya dedi: «Rabbi, Sən harada qalır-
san?» «Rabbi» «Müəllim» deməkdir.
39İsa onlara dedi: «Mənimlə gəlin,
görərsiniz». Onlar gedib İsanın harada
qaldığını gördülər və həmin gün Onun-
la qaldılar. Onuncu saat[a] radələri idi.
40Yəhyadan eşidib İsanın ardınca
gedən iki nəfərdən biri Şimon Peterin
qardaşı Andrey idi. 41Sonra o, ilk öncə
qardaşı Şimonu tapıb ona «biz Məsihi
tapdıq» dedi. «Məsih» «Məsh olun-
muş»[b] deməkdir. 42Onu İsanın yanına
apardı. İsa Şimona baxıb dedi: «Sən
Yəhya oğlu Şimonsan, amma Kefa
adlanacaqsan». Kefa isə Peter[c] de-
məkdir.

43Ertəsi gün İsa Qalileyaya getmək
istədi. O, Filipi tapıb ona «ardımca
gəl» dedi. 44Filip də Andrey və Peter
kimi Bet-Sayda şəhərindən idi. 45Filip
Natanaeli tapıb ona dedi: «Musanın
Qanunda yazdığı, peyğəmbərlərin də
bəhs etdiyi Şəxsi – Yusif Oğlu Na-
zaretli İsanı tapdıq». 46Natanael ona
dedi: «Nazaretdən yaxşı bir şey çıxar-
mı?» Filip isə ona «gəl özün bax» dedi.
47İsa Natanaelin Ona tərəf gəldiyini
görüb haqqında belə dedi: «Bu, hə-
qiqətən, ürəyində hiylə olmayan bir
İsraillidir». 48Natanael «Sən məni ha-
radan tanıyırsan?» deyə Ondan soruş-
du. İsa ona cavab verdi: «Filip səni
çağırmazdan əvvəl səni əncir ağacının
altında gördüm». 49Natanael Ona
dedi: «Rabbi, Sən Allahın Oğlusan,
İsrailin Padşahısan!» 50İsa ona cavab
verib dedi: «Səni əncir ağacının altında
gördüyümü söylədiyim üçünmü Mənə
iman edirsən? Sən bunlardan daha
böyük şeylər görəcəksən». 51Yenə ona
dedi: «Doğrusunu, doğrusunu sizə
deyirəm: göyün yarıldığını və Allahın
mələklərinin Bəşər Oğlu üzərinə enib-
qalxdığını görəcəksiniz».

### *İsa suyu şəraba döndərir*

2 1Bunun üçüncü günü Qalileyanın
Qana kəndində toy oldu. İsanın
anası orada idi. 2İsa ilə şagirdləri də
toya çağırılmışdı. 3Şərab qurtaranda
anası İsaya dedi: «Şərabları qalmadı».
4İsa dedi: «Ana, məndən nə istəyirsən?
Mənim vaxtım hələ çatmayıb». 5Anası
xidmətçilərə dedi: «Sizə nə desə, edin».

6Yəhudilərin paklanma mərasimi
üçün orada hər biri iki-üç ölçü[d] su tuta
bilən altı daş küp var idi. 7İsa xidmət-
çilərə dedi: «Küpləri su ilə doldurun».
Onları ağzına qədər doldurdular. 8O,
xidmətçilərə dedi: «İndi bir az götürüb
toyağasına aparın». Onlar da apardı.
9Toyağası şəraba çevrilmiş suyun da-
dına baxdı. O bunun haradan gə-

a **1:39** *Onuncu saat* – hazırkı vaxtla günorta saat dörd.
b **1:41** *Məsh olunmuş* – yunan dilində *Xristos.*
c **1:42** *Kefa, Peter – Kefa* arami dilində, *Peter* isə yunan dilində *daş* deməkdir.
d **2:6** *İki-üç ölçü* – hərfi tərcümədə *iki-üç metrit*, təqribən 80-120 litr.
**1:51** *Yar. 28:12*

John Lat:Azeri Bible Cyrillic 16.01.2009 12:24 Page 132



tirildiyini bilmirdi, bunu yalnız suyu
götürən xidmətçilər bilirdi. Toyağası
bəyi çağırıb ona dedi: 10«Hər kəs əv-
vəlcə əla şərabı, çox içiləndən sonra isə
adi şərabı təqdim edir. Amma sən əla
şərabı indiyə saxlamısan».

11İsa Qalileyanın Qana kəndində
bu ilk əlamətini göstərdi və izzətini üzə
çıxardı. Şagirdləri də Ona iman etdi.
12Bundan sonra anası, qardaşları və
şagirdləri ilə birgə Kefernahuma gedib
orada bir neçə gün qaldı.

### *İsa satıcıları məbəddən qovur*

*(Mat. 21:12-13; Mark 11:15-17;*
*Luka 19:45-46)*

13Yəhudilərin Pasxa bayramı
yaxınlaşırdı. İsa Yerusəlimə getdi.
14Məbəddə öküz, qoyun, göyərçin
satanların və sərrafların oturduğunu
gördü. 15İplərdən bir qamçı düzəldib
hamını qoyun və öküzlərlə birgə mə-
bəddən qovdu, sərrafların masalarını
çevirib pullarını yerə tökdü, 16göyərçin
satanlara da dedi: «Bunları buradan
götürün. Atamın evini bazara döndər-
məyin». 17Şagirdləri də «evinin qeyrəti
Məni yandırıb-yaxacaq» deyə yazıldı-
ğını xatırladılar.

18Sonra Yəhudi başçıları Ondan
soruşdular: «Bunları etməyə ixtiyarın
olduğunu bizə hansı əlamətlə göstərə
bilərsən?» 19İsa onlara cavab verdi:
«Bu məbədi dağıdın, üç günə Mən onu
təzədən quraram». 20Onda Yəhudi
başçıları dedilər: «Bu məbəd qırx altı
ilə tikilib, Sən onu üç günəmi quracaq-
san?» 21Lakin İsa məbəd deyəndə Öz
bədənini nəzərdə tuturdu. 22İsa ölülər
arasından dirildiyi zaman şagirdləri
Onun bu sözləri söylədiyini xatırladı-
lar, Müqəddəs Yazıya və İsanın söy-
lədiyi sözə inandılar.

23İsa Pasxa bayramı zamanı Yeru-
səlimdə olanda göstərdiyi əlamətləri
görən bir çox adam Onun adına iman
etdi. 24Amma İsa bütün adamların
daxilini bildiyi üçün onlara güvənməz-
di. 25Bir adam haqqında kiminsə Ona
şəhadət etməsinə ehtiyacı yox idi,
çünki insanın ürəyindən keçənləri bi-
lirdi.

### *İsa və Nikodim*

3 1Fariseylər arasında Nikodim adlı
bir Yəhudi rəhbəri var idi. 2O,
gecə ikən İsanın yanına gəlib dedi:
«Rabbi, bilirik ki, Sən Allahın yanın-
dan gələn bir müəllimsən. Çünki Allah
ona yar olmasa, heç kəs Sənin gös-
tərdiyin əlamətləri edə bilməz». 3İsa
ona cavab verdi: «Doğrusunu, doğru-
sunu sənə deyirəm: bir kəs yenidən
doğulmasa, Allahın Padşahlığını görə
bilməz». 4Nikodim Ondan soruşdu:
«Yaşa dolmuş bir adam necə yenidən
doğula bilər? O, ikinci dəfə anasının
bətninə girib doğula bilərmi?» 5İsa
cavab verdi: «Doğrusunu, doğrusunu
sənə deyirəm: bir kəs sudan və Ruh-
dan doğulmasa, Allahın Padşahlığına
daxil ola bilməz. 6Bəşərdən doğulan
bəşərdir, Ruhdan doğulan ruhdur.
7Sənə "yenidən doğulmalısınız" dedi-
yimə heyrət etmə. 8Yel istədiyi yerdə
əsir, onun səsini eşidirsən, amma ha-
radan gəlib haraya getdiyini bilmirsən.
Ruhdan doğulmuş adam da belədir».
9Nikodim «Bu şeylər necə ola bilər?»
deyə soruşdu. 10İsa ona cavab verdi:
«Sən İsrailin müəllimisən. Bunları bil-
mirsənmi? 11Doğrusunu, doğrusunu
sənə deyirəm: biz bildiyimizi söylə-
yirik, gördüyümüzə şəhadət edirik,

**2:12** *Mat. 4:13* **2:13** *Çıx. 12:1-27* **2:17** *Zəb. 69:9* **2:19** *Mat. 26:61; 27:40; Mark 14:58; 15:29*

John Lat:Azeri Bible Cyrillic 16.01.2009 12:24 Page 133



amma siz bizim şəhadətimizi qəbul
etmirsiniz. 12Əgər Mən sizə yerdəki
işlərdən danışanda inanmırsınızsa,
göydəki işlərdən danışsam, necə ina-
nacaqsınız? 13Heç kəs göyə çıxmayıb,
yalnız göydən enmiş[a] Bəşər Oğlu
orada olub. 14Musa çöldə ilanı yuxarı
qaldırdığı kimi Bəşər Oğlu da yuxarı
qaldırılmalıdır ki, 15Ona iman edən
hər kəs əbədi həyata[b] malik olsun».

16Çünki Allah dünyanı elə sevdi ki,
vahid Oğlunu verdi; bunu ona görə
etdi ki, Ona iman edən hər kəs həlak
olmasın, amma əbədi həyata malik
olsun. 17Allah dünyanı mühakimə
etmək üçün deyil, Oğlunun vasitəsilə
xilas etmək üçün Onu dünyaya
göndərdi. 18Ona iman edən mühakimə
olunmur, iman etməyənsə artıq mü-
hakimə olunub, çünki Allahın vahid
Oğlunun adına iman etməyib. 19Mü-
hakimə bundan ibarətdir ki, dünyaya
nur gəldi, amma insanlar qaranlığı
nurdan daha çox sevdilər, çünki əməl-
ləri şər idi. 20Pislik edən hər kəs nura
nifrət edər, əməllərinin üzə çıxmaması
üçün nura tərəf gəlməz.[c] 21Həqiqətə
əməl edənsə nura tərəf gələr ki, əməl-
lərini Allah naminə etdiyi bəlli olsun.

### *Yəhyanın İsa barədə şəhadəti*

22Bundan sonra İsa və Onun şa-
girdləri Yəhudeya diyarına gəldilər.
İsa bir müddət onlarla orada qalıb
vəftiz edirdi. 23Yəhya da Şalim yaxın-
lığındakı Aynonda vəftiz edirdi, çünki
orada çoxlu su var idi. Adamlar da
gəlib vəftiz olunurdu. 24Yəhya hələ
zindana salınmamışdı.

25Bu zaman Yəhyanın şagirdləri ilə
bir Yəhudi[d] arasında paklanma barə-
də mübahisə düşdü. 26Şagirdləri Yəh-
yanın yanına gəlib dedilər: «Rabbi,
İordanın o tayında sənin yanında olan
və barəsində şəhadət etdiyin Şəxs indi
Özü vəftiz edir və hamı Onun yanına
gəlir». 27Yəhya cavabında dedi:
«İnsana göydən verilməsə, o heç nə ala
bilməz. 28"Mən Məsih deyiləm, ancaq
Ondan əvvəl göndərilmişəm" sözümə
özünüz şahidsiniz. 29Gəlin kimindirsə,
bəy odur. Amma bəyi gözləyərək ona
qulaq asan sağdışı bəyin səsini eşidib
çox sevinir. Mənim sevincim beləcə
tam oldu. 30İndi Ona böyümək, mənə
kiçilmək gərəkdir».

31Yuxarıdan Gələn hamıdan üstün-
dür. Yer üzündən olan yerə məxsusdur
və yer barədə danışar, göydən Gələnsə
hamıdan üstündür. 32Nə görüb-eşidib-
sə, ona şəhadət edər, amma şəhadətini
heç kəs qəbul etməz. 33Onun şəha-
dətini qəbul edən kəs Allahın haqq
olduğuna möhür basıb. 34Ona görə ki
Allahın göndərdiyi Şəxs Allahın söz-
lərini söyləyər. Çünki Allah Ruhu
hədsiz verir. 35Ata Oğulu sevir və hər
şeyi Onun ixtiyarına verib. 36Oğula
iman edən şəxs əbədi həyata malikdir,
Oğula itaət etməyənsə həyat görmə-
yəcək, lakin Allahın qəzəbi onun
üzərində qalır.

### *İsa və Samariyalı qadın*

4 1Fariseylər İsanın Özünə Yəhya-
dan daha çox şagird toplayıb
vəftiz etdiyi barədə eşitdilər; 2əslində
İsanın Özü deyil, şagirdləri vəftiz

a **3:13** *Göydən enmiş* – bəzi əlyazmalarda *göydən enmiş, indi də göydə olan.*
b **3:15** *Hər kəs əbədi həyata* – bəzi əlyazmalarda *hər kəs həlak olmasın, amma əbədi həyata.*
c **3:20** *Gəlməz* – bəzi əlyazmalarda *gəlməz, çünki əməlləri şərdir.*
d **3:25** *Bir Yəhudi* – bəzi əlyazmalarda *bəzi Yəhudilər.* **3:14** *Say. 21:9*
**3:24** *Mat. 14:3; Mark 6:17; Luka 3:19* **3:28** *Yəh. 1:20* **3:35** *Mat. 11:27; Luka 10:22*

John Lat:Azeri Bible Cyrillic 16.01.2009 12:24 Page 134



edirdi. 3İsa bundan xəbər tutan kimi
Yəhudeyanı tərk edib Qalileyaya
qayıtdı. 4Onun yolu Samariyadan
keçirdi. 5O, Yaqubun öz oğlu Yusifə
verdiyi torpağa yaxın olan Samari-
yanın Sixar adlanan şəhərinə gəldi.
6Yaqubun quyusu orada idi. Yol İsanı
yorduğu üçün quyunun yanında otur-
du. Altıncı saat[a] radələri idi.

7Samariyalı bir qadın quyudan su
çəkməyə gəldi. İsa ona «Mənə su ver,
içim» dedi. 8Çünki şagirdləri yemək
almaq üçün şəhərə getmişdi. 9Sama-
riyalı qadın Ona dedi: «Sən bir Yə-
hudisən, mənsə Samariyalı bir qadın.
Sən necə məndən su istəyə bilərsən?»
Çünki Yəhudilər Samariyalılarla ün-
siyyət etmir. 10İsa ona cavab verdi:
«Əgər sən Allahın bəxşişini və "Mənə
su ver, içim" deyənin Kim olduğunu
bilsəydin, özün Ondan su istəyərdin, O
da sənə həyat suyu verərdi». 11Qadın
Ona dedi: «Ağa, su çəkmək üçün bir
qabın yox, quyu da dərindir. Bəs o
həyat suyunu haradan götürəcəksən?
12Məgər Sən bu quyunu bizə verən,
oğulları və mal-qarası ilə buradan su
içən atamız Yaqubdan da üstünsən?»
13İsa ona cavab verdi: «Bu sudan içən
hər kəs yenə susayar, 14amma Mənim
ona verəcəyim sudan kim içsə, heç
vaxt susamaz. Lakin ona verəcəyim su
onun daxilində əbədi həyat verən bir
su qaynağına çevriləcək». 15Qadın
Ona dedi: «Ağa, bu suyu mənə ver ki,
mən heç vaxt susamayım və su çəkmək
üçün buraya gəlməyim».

16İsa qadına «get ərini çağır və
buraya gəl» dedi. 17Qadın da Ona
«ərim yoxdur» söylədi. İsa ona dedi:
«"Ərim yoxdur" deməklə düz söy-
lədin, 18çünki beş kişin olub, indi
səninlə yaşayan da ərin deyil, sən
bunu düz söylədin». 19Qadın Ona de-
di: «Ağa, görürəm ki, Sən peyğəm-
bərsən. 20Bizim ata-babalarımız bu
dağda ibadət edirdi, amma siz de-
yirsiniz ki, ibadət etmək üçün lazımi
yer Yerusəlimdədir». 21İsa ona dedi:
«Ey qadın, Mənə inan, artıq o zaman
yetişir ki, Ataya nə bu dağda, nə də
Yerusəlimdə ibadət edəcəksiniz. 22Siz
bilmədiyinizə ibadət edirsiniz, bizsə
bildiyimizə ibadət edirik, çünki xilas
Yəhudilərdəndir. 23Amma o zaman
gəlir və artıq gəlib ki, həqiqi ibadət
edənlər Ataya ruhda və həqiqətdə
ibadət etsin. Ata da Özünə belə ibadət
edənlər axtarır. 24Allah ruhdur və
Ona ibadət edənlər ruhda və həqi-
qətdə ibadət etməlidir». 25Qadın Ona
dedi: «Bilirəm ki, "Məsih" deyilən
məsh olunmuş Şəxs gələcək və gələn-
də bizə hər şeyi bildirəcək». 26İsa ona
dedi: «Səninlə danışan Odur, O Mə-
nəm».

27Bu arada İsanın şagirdləri gəldilər
və Onun bir qadınla söhbət etməsinə
heyrətləndilər, ancaq heç biri «Nə
istəyirsən?» yaxud «Niyə o qadınla
danışırsan?» demədi. 28Bu zaman
qadın səhəngini yerə qoydu və şəhərə
gedib adamlara dedi: 29«Gəlin, etdi-
yim bütün əməlləri mənə söyləyən
Adamı görün. Bəlkə elə Məsih Odur?»
30Adamlar da şəhərdən çıxıb İsanın
yanına gəldilər.

31Bu arada şagirdlər «Rabbi,
yemək ye» deyə Ondan xahiş etdilər.
32Lakin İsa onlara dedi: «Məndə elə
yemək var ki, siz ondan xəbərsizsiniz».
33Onda şagirdlər «Görəsən kimsə Ona

---

a **4:6** *Altıncı saat* – hazırkı vaxtla günorta saat on iki.

**4:5** *Yar. 33:19; Yeşua 24:32* **4:9** *Ezra 4:1-5; Neh. 4:1-2* **4:10-11** *Yəh. 7:38*

John Lat:Azeri Bible Cyrillic 16.01.2009 12:24 Page 135



yemək gətirdimi?» deyə bir-birindən
soruşdular. 34İsa onlara dedi: «Mənim
yeməyim Məni Göndərənin iradəsini
yerinə yetirmək, Onun işini tamam-
lamaqdır. 35Siz "biçinə dörd ay qalıb"
demirsinizmi? Budur, Mən sizə deyi-
rəm: başınızı qaldırıb tarlalara baxın;
məhsul bar verib, biçilməyə hazırdır.
36Əkən də, biçən də birlikdə sevinsin
deyə indi biçinçi zəhmət haqqı alır və
əbədi həyat üçün məhsul toplayır.
37Bu işlə bağlı "biri əkər, biri biçər"
ifadəsi doğru deyilib. 38Mən sizi
zəhmətini çəkmədiyiniz bir məhsulu
biçməyə göndərdim. Başqaları zəhmət
çəkdi, sizsə onların zəhmətindən bəh-
rələndiniz».

39«Etdiyim bütün əməlləri mənə
söylədi» deyə şəhadət edən qadının
sözünə görə o şəhərdən olan Sa-
mariyalıların bir çoxu İsaya iman etdi.
40Sonra Samariyalılar İsanın yanına
gəlib Ondan xahiş etdilər ki, onların
yanında qalsın. İsa da iki gün orada
qaldı. 41Daha çox adam da İsanın
sözünə görə iman etdi. 42Onlar qadına
deyirdilər: «Biz artıq sənin sözlərinə
görə iman etmirik, elə özümüz də
eşidib bildik ki, həqiqətən, dünyanın
Xilaskarı[a] Budur».

43İsa iki gündən sonra oranı tərk
edib Qalileyaya tərəf yola düşdü.
44Çünki peyğəmbərin öz yurdunda
hörməti olmadığı barədə İsa Özü bir
vaxt şəhadət etmişdi. 45İndi Qalile-
yaya gələndə Qalileyalılar Onu qəbul
etdi, çünki onlar da bayram zamanı
Yerusəlimə gəlib Onun orada etdiyi
hər şeyi görmüşdülər.

### *Məmur oğlunun şəfa tapması*

46Beləcə İsa suyu şəraba çevirdiyi
Qalileyanın Qana kəndinə yenə gəldi.
Kefernahumda hökmdarın bir məmu-
ru var idi. Onun oğlu xəstələnmişdi.
47O, İsanın Yəhudeyadan Qalileyaya
gəldiyini eşidib yanına getdi və Ondan
xahiş etdi ki, gəlib oğlunu sağaltsın,
çünki oğlu ölüm ayağında idi. 48Onda
İsa ona dedi: «Siz əlamətlər və xari-
qələr görməyincə iman etməyəcəksi-
niz». 49Hökmdarın məmuru Ona
dedi: «Ağa, uşağım ölməzdən qabaq
gəl!» 50İsa ona «get, oğlun sağ-
salamatdır» dedi. O adam da İsanın
sözünə inanıb getdi. 51Evə gələrkən
qulları onu qarşılayaraq oğlunun sağ-
salamat olduğunu söylədilər. 52Oğlu-
nun nə vaxt yaxşılaşdığını qullarından
soruşdu, onlar da dedilər: «Dünən
yeddinci saatda[b] qızdırması düşdü».
53O zaman ata başa düşdü ki, İsa elə
həmin vaxt ona «oğlun sağ-salamat-
dır» demişdi. Onda özü də, bütün ev
əhli də İsaya iman etdi. 54Bu, İsanın
göstərdiyi ikinci əlamət idi. Onu
Yəhudeyadan Qalileyaya gələndə et-
mişdi.

### *Hovuz kənarındakı xəstənin şəfa tapması*

5 1Bu hadisələrdən sonra Yəhudi-
lərin bir bayramı oldu və İsa
Yerusəlimə getdi. 2Yerusəlimdəki
Qoyun darvazasının yanında, ibranicə
Bet-Xasda adlanan beş eyvanlı bir
hovuz var. 3Bu eyvanlarda çoxlu
xəstə, kor, topal və iflic adam yatardı.

a **4:42** *Xilaskarı* – bəzi əlyazmalarda *Xilaskarı olan Məsih.*
b **4:52** *Yeddinci saat* – hazırkı vaxtla günorta saat bir.
**4:35** *Mat. 9:37-38; Luka 10:2* **4:44** *Mat. 13:57; Mark 6:4; Luka 4:24* **4:45** *Yəh. 2:23*
**4:46** *Yəh. 2:1-11*

John Lat:Azeri Bible Cyrillic 16.01.2009 12:24 Page 136



4[a] 5Otuz səkkiz il xəstə olan bir adam
da orada idi. 6İsa onun yatdığını
görəndə çoxdan xəstə olduğunu bilə-
rək ondan soruşdu: «Sağalmaq istə-
yirsənmi?» 7Xəstə Ona cavab verdi:
«Ağa, yanımda bir adam yoxdur ki, su
çalxalanan zaman məni hovuza salsın.
Mən çatınca başqası məndən əvvəl
oraya enir». 8İsa ona dedi: «Qalx,
döşəyini götür və yeri!» 9O adam
həmin anda sağaldı və döşəyini götü-
rüb yeridi.

O gün Şənbə günü idi. 10Buna görə
də Yəhudi başçıları şəfa tapan adama
dedilər: «Bu gün Şənbə günüdür,
döşəyini daşımaq sənə qadağandır».
11O adam onlara cavab verdi: «Məni
sağaldan Şəxs mənə “döşəyini götür və
yeri” dedi». 12Ondan soruşdular:
«Sənə “götür və yeri” deyən Adam
kimdir?» 13Lakin sağalan adam Onun
kim olduğunu bilmirdi, çünki İsa o
yerdə olan izdihama qarışmışdı. 14Bir
az sonra İsa məbəddə həmin adamı
tapıb dedi: «Bax sən sağaldın, bir də
günah etmə ki, başına daha pis iş
gəlməsin». 15O adam gedib onu
sağaldan Şəxsin İsa olduğunu Yəhudi
başçılarına bildirdi. 16Buna görə
Yəhudi başçıları İsanı təqib etməyə
başladılar,[b] çünki bunları Şənbə günü
edirdi. 17Lakin İsa onlara dedi:
«Mənim Atam indiyə qədər iş görür,
Mən də iş görürəm». 18Bundan sonra
Yəhudi başçıları daha da səylə Onu
öldürməyə çalışırdılar, çünki İsa yalnız
Şənbə gününü pozmadı, həm də
Allahın Öz Atası olduğunu söyləyərək
Özünü Allaha bərabər saydı.

### *İsanın səlahiyyəti*

19Beləcə İsa onlara dedi: «Doğru-
sunu, doğrusunu sizə deyirəm: Oğul
Atanın nə etdiyini görməsə, Özündən
bir şey etməz. Çünki Ata nə edərsə,
Oğul da onu edər. 20Ona görə ki Ata
Oğulu sevir və Özünün etdiyi hər şeyi
Ona göstərir. Ona bunlardan da böyük
işlər göstərəcək ki, siz heyrətlənəsiniz.
21Ata ölüləri dirildib onlara həyat
verdiyi kimi Oğul da istədiyi şəxslərə
həyat verir. 22Ata heç kəsi mühakimə
etmir, lakin hökm çıxarmağı Oğulun
ixtiyarına verib ki, 23hər kəs Ataya
hörmət etdiyi kimi Oğula da hörmət
etsin. Oğula hörmət etməyən Onu
göndərən Ataya da hörmət etmir.

24Doğrusunu, doğrusunu sizə deyi-
rəm: Mənim sözümə qulaq asıb Məni
Göndərənə inanan şəxs əbədi həyata
malikdir və ona hökm çıxarılmayacaq,
əksinə, ölümdən həyata keçib. 25Doğ-
rusunu, doğrusunu sizə deyirəm: Allah
Oğlunun səsini ölülərin eşitdiyi zaman
gəlir və artıq gəlib; bunu eşidənlər
yaşayacaq. 26Çünki Atanın Özündə
həyat olduğu kimi Oğula da Özündə
həyat olmağı bəxş etdi. 27Hökm çıxar-
maq səlahiyyətini də Ona verdi, çünki
O, Bəşər Oğludur. 28Buna heyrət et-
məyin, çünki elə bir zaman gəlir ki,
qəbirdə yatanların hamısı Onun səsini
eşidib 29qəbirlərindən çıxacaq, yaxşı-
lıq edənlər həyat üçün diriləcək, pislik
edənlərsə hökm üçün diriləcək.

30Mən Özümdən heç nə edə bilmə-
rəm, eşitdiyim kimi mühakimə edərəm
və Mənim verdiyim hökm ədalətlidir.

a **5:3-4** *Yatardı* – bəzi əlyazmalarda *yatardı və suyun çalxalanmasını gözləyərdi.* [4] *Çünki Rəbbin bir mələyi hərdən hovuzun içinə enib suyu çalxalayardı. Suyun çalxalanmasından sonra oraya girən ilk adam hansı xəstəliyi olursa-olsun, sağlam olardı.*

b **5:16** *Başladı* – bəzi əlyazmalarda *başladı və Onu öldürməyə çalışdı.*

**5:10** *Neh. 13:19; Yer. 17:21* **5:29** *Dan. 12:2*

John Lat:Azeri Bible Cyrillic 16.01.2009 12:24 Page 137



Çünki məqsədim Öz iradəmi deyil,
Məni Göndərənin iradəsini yerinə
yetirməkdir.

### *İsaya şəhadət*

31Əgər Mən Özüm barədə şəhadət
etsəydim, şəhadətim etibarlı olmazdı.
32Lakin Mənim barəmdə şəhadət edən
başqasıdır və Mənim barəmdə etdiyi
şəhadətin etibarlı olduğunu bilirəm.
33Siz Yəhyanın yanına adamlar gön-
dərdiniz və o, həqiqətə şəhadət etdi.
34Lakin insandan şəhadət qəbul et-
diyim üçün deyil, yalnız sizin xilas
olmağınız üçün bunları söyləyirəm.
35Yəhya yanan və nur saçan bir çıraq
idi, siz bir müddət onun işığında
sevinmək istədiniz. 36Amma Mənim
barəmdə olan şəhadət Yəhyanın şəha-
dətindən üstündür. Çünki Atanın Mə-
nə tam yerinə yetirmək üçün tapşırdığı
işlər – indi etdiyim bu işlər Mənim
barəmdə şəhadət edir ki, Ata Məni
göndərib. 37Məni göndərən Atanın
Özü də Mənim barəmdə şəhadət etdi.
Siz heç vaxt nə Onun səsini eşitmisiniz,
nə də surətini görmüsünüz. 38Onun
kəlamının da sizdə qalmasına imkan
vermirsiniz, çünki Onun göndərdiyi
Şəxsə inanmırsınız. 39Siz Müqəddəs
Yazıları araşdırırsınız. Çünki düşü-
nürsünüz ki, onların vasitəsilə əbədi
həyata malik olacaqsınız. Lakin onlar
da Mənim barəmdə şəhadət edir,
40sizsə həyata malik olmaq üçün Mənə
tərəf gəlmək istəmirsiniz.

41İnsanlardan izzət qəbul etmirəm.
42Ancaq sizi tanıyıb bilirəm ki,
ürəyinizdə Allah məhəbbəti yoxdur.
43Mən Atamın adı ilə gəlmişəm, amma
siz Məni qəbul etmirsiniz. Əgər bir
başqası öz adı ilə gəlsə, onu qəbul
edərsiniz. 44Siz bir-birinizdən izzət
qəbul edirsiniz, bir olan Allahdan
gələn izzəti isə axtarmırsınız. Bəs onda
necə iman edə bilərsiniz? 45Güman
etməyin ki, Mən sizi Atanın önündə
ittiham edəcəyəm. Sizi ittiham edən
ümid bağladığınız Musadır. 46Əgər siz
Musaya inansaydınız, Mənə də ina-
nardınız, çünki o Mənim barəmdə
yazıb. 47Lakin onun yazdıqlarına
inanmırsınızsa, Mənim sözlərimə necə
inanacaqsınız?»

### *İsa beş min nəfəri doydurur*

*(Mat. 14:13-21; Mark 6:30-44; Luka 9:10-17)*

6 1Bu hadisələrdən sonra İsa Qa-
lileya – Tiberiya gölünün o biri
sahilinə keçdi. 2Böyük bir izdiham
Onun ardınca gedirdi, çünki Onun
xəstələrlə göstərdiyi əlamətləri görür-
dü. 3İsa dağa çıxıb şagirdləri ilə otur-
du. 4Yəhudilərin Pasxa bayramı ya-
xınlaşırdı.

5İsa başını qaldıraraq böyük bir
izdihamın yanına gəldiyini görüb Fi-
lipə dedi: «Haradan çörək alıb bu
adamları yedirək?» 6Bu sözləri onu
sınamaq məqsədi ilə söylədi, çünki Özü
nə edəcəyini bilirdi. 7Filip Ona cavab
verdi: «Bunlara iki yüz dinarlıq[a] çörək
də çatmaz ki, hərəsi bir tikə yemək
yesin». 8Şagirdlərindən biri olan
Şimon Peterin qardaşı Andrey Ona
dedi: 9«Burada beş kiçik arpa çörəyi
ilə iki balığı olan bir oğlan var, amma
bu qədər adam üçün bunlar nədir ki?»
10İsa «xalqı yerə oturdun» dedi. Ora
otla örtülmüşdü. Xalq da oturdu.
Kişilərin sayı beş minə yaxın idi. 11O
zaman İsa çörəkləri götürüb şükür

a **6:7** *Yüz dinarlıq* – bir dinar fəhlənin bir günlük maaşına bərabər idi.
**5:33** *Yəh. 1:19-27; 3:27-30* **5:37** *Mat. 3:17; Mark 1:11; Luka 3:22*

John Lat:Azeri Bible Cyrillic 16.01.2009 12:24 Page 138



edərək balıqlarla birgə, oturanlara,[a] –
hər kəsə istədiyi qədər payladı.
**12**Onlar yeyib-doyandan sonra İsa şa-
girdlərinə dedi: «Artıq qalan hissələri
toplayın ki, heç bir şey zay olmasın».
**13**Bunları topladılar və beş arpa
çörəyini yeyənlərin qabağından qalan
hissələrdən on iki zənbil doldurdular.
**14**O zaman İsanın göstərdiyi əlaməti
görən adamlar «Həqiqətən, dünyaya
gəlməli olan peyğəmbər Budur!» de-
yirdi. **15**İsa bildi ki, adamlar gəlib Onu
padşah etmək üçün zorla aparmağa
hazırlaşır, buna görə də təkbaşına
dağa çəkildi.

### *İsa suyun üstü ilə yeriyir*

*(Mat. 14:22-33; Mark 6:45-52)*

**16**Axşam çatanda İsanın şagirdləri
gölə enib **17**bir qayığa mindilər. Onlar
gölün o biri sahilində olan Keferna-
huma gedirdilər. Qaranlıq düşmüşdü,
amma İsa hələ onların yanına gəl-
məmişdi. **18**Güclü külək əsdiyindən göl
dalğalanırdı. **19**Onlar beləcə avar çəkib
iyirmi beş ya otuz stadi[b] gedəndən
sonra gördülər ki, İsa gölün üstü ilə
yeriyir və qayığa yaxınlaşır. Qorx-
dular, **20**amma İsa onlara «Mənəm,
qorxmayın» dedi. **21**Onda şagirdlər
Onu məmnunluqla qayığa götürdülər.
Sonra qayıq o andaca getdikləri sahilə
çatdı.

**22**Ertəsi gün gölün o biri sahilində
qalan xalq başa düşdü ki, orada yalnız
bir qayıq[c] olub, İsa Öz şagirdləri ilə
həmin qayığa minməyib, şagirdləri
Onsuz gedib. **23**O arada Tiberiyadan
digər qayıqlar Rəbb şükür edəndən
sonra yemək yedikləri yerin yaxınlı-
ğına gəldilər. **24**Beləcə xalq İsanın da,
şagirdlərinin də orada olmadığını
görüb qayıqlara minərək İsanı axtara-
axtara Kefernahuma gəldi.

### *Həyat çörəyi*

**25**İsanı gölün o biri sahilində gö-
rəndə «Rabbi, buraya nə vaxt gəldin?»
deyə soruşdular. **26**İsa onlara cavab
olaraq dedi: «Doğrusunu, doğrusunu
sizə deyirəm: əlamətlər gördüyünüz
üçün deyil, çörək yeyib doyduğunuz
üçün Məni axtarırsınız. **27**Keçib-gedən
yemək üçün deyil, əbədi həyat verən,
daim qalan yemək üçün işlər görün,
onu sizə Bəşər Oğlu verəcək. Çünki
Ata Allah Ona Öz möhürünü vurub».
**28**Onlar İsadan soruşdular: «Allahın
istədiyi işləri görmək üçün biz nə
edək?» **29**İsa onlara cavab verdi:
«Allahın istədiyi iş budur: Onun
göndərdiyi Şəxsə iman edin».

**30**Onlar İsaya dedilər: «Sən nə əla-
mət göstərərsən ki, görüb Sənə inanaq?
Nə iş görəcəksən? **31**Ata-babalarımız
çöldə manna yedi; bu barədə yazılıb:
"Onlara yemək üçün göydən çörək
verdi"». **32**Onda İsa onlara dedi:
«Doğrusunu, doğrusunu sizə deyirəm:
sizə göydən çörək verən Musa deyildi,
göydən həqiqi çörəyi sizə verən Atam-
dır. **33**Çünki Allahın çörəyi budur ki,
göydən enir və dünyaya həyat verir».
**34**Ona dedilər: «Ağa, Sən daim bizə bu
çörəyi ver».

**35**İsa onlara dedi: «Həyat çörəyi
Mənəm. Mənim yanıma gələn heç vaxt
acmaz, Mənə iman edən heç vaxt
susamaz. **36**Lakin sizə dedim ki, Məni
görürsünüz, amma iman etmirsiniz.

---

a **6:11** *Oturanlara* – bəzi əlyazmalarda *şagirdlərə, şagirdlər də oturanlara.*
b **6:19** *İyirmi beş ya otuz stadi* – təqribən 5-6 km.
c **6:22** *Bir qayıq* – bəzi əlyazmalarda *bir qayıq, İsanın şagirdlərinin mindiyi qayıq.*
**6:31** *Çıx. 16:4,15; Zəb. 78:24*

John Lat:Azeri Bible Cyrillic 16.01.2009 12:24 Page 139



37Atanın Mənə verdiyi şəxslərin ha-
mısı yanıma gələcək və yanıma gələni
heç vaxt kənara atmaram. 38Çünki Öz
iradəmi deyil, Məni Göndərənin ira-
dəsini yerinə yetirmək üçün göydən
enmişəm. 39Məni Göndərənin iradəsi
budur ki, Mənə verdiyi şəxslərin heç
birini həlak olmağa qoymayım, lakin
son gündə onları dirildim. 40Çünki
Atamın iradəsi budur ki, Oğulu görüb
Ona iman edən hər şəxs əbədi həyata
malik olsun və Mən onu son gündə
dirildim».

41Bunun cavabında Yəhudilər İsa-
nın «göydən enmiş çörək Mənəm»
sözünə görə deyinib 42dedilər: «Bu,
ata-anasını tanıdığımız, Yusifin Oğlu
olan İsa deyilmi? İndi necə olur ki,
"göydən enmişəm" deyir?» 43İsa on-
lara cavab verdi: «Öz-özünüzə deyin-
məyin. 44Əgər Məni göndərən Ata bir
kəsi cəzb etməsə, o Mənim yanıma
gələ bilməz. Yanıma gələni isə Mən
son gündə dirildəcəyəm. 45Peyğəm-
bərlərin kitablarında yazılıb: "Onların
hamısını Allah öyrədəcək". Atadan
eşidib öyrənən hər kəs Mənim yanıma
gəlir. 46Əlbəttə, Allahdan gələn Şəxs-
dən savayı Atanı heç kəs görməyib,
yalnız O, Atanı görüb. 47Doğrusunu,
doğrusunu sizə deyirəm: iman edən
əbədi həyata malikdir. 48Həyat çörəyi
Mənəm. 49Ata-babalarınız çöldə man-
na yedilər və öldülər. 50Bu isə göydən
enən elə bir çörəkdir ki, ondan yeyən
şəxs heç vaxt ölməz. 51Göydən enmiş
canlı çörək Mənəm. Əgər kimsə bu
çörəkdən yesə, əbədi yaşayar. Dünya-
nın həyatı üçün verəcəyim çörək Öz
ətimdir».

52Bunun cavabında Yəhudilər «Bu
Adam yemək üçün Öz ətini bizə necə
verə bilər?» deyib bir-birləri ilə mü-
bahisə etdilər. 53Onda İsa onlara dedi:
«Doğrusunu, doğrusunu sizə deyirəm:
Bəşər Oğlunun ətindən yeyib qanın-
dan içməsəniz, daxilinizdə həyat olma-
yacaq. 54Mənim ətimdən yeyib qanım-
dan içən əbədi həyata malikdir və Mən
onu son gündə dirildəcəyəm. 55Çünki
Mənim ətim həqiqi yemək, qanım da
həqiqi içkidir. 56Mənim ətimdən yeyib
qanımdan içən Məndə qalır, Mən də
onda qalıram. 57Var olan Ata Məni
göndərdiyi kimi, Mən də Atanın
sayəsində yaşadığım kimi Məndən
yeyən də Mənim sayəmdə yaşayacaq.
58Göydən enmiş çörək budur, ata-
babalarınızın yediyi[a] kimi deyil. Onlar
öldülər, amma bu çörəyi yeyən əbədi
yaşayacaq». 59İsa bu sözləri Keferna-
humda, sinaqoqda təlim öyrədərkən
söylədi.

### *Şagirdlərin çoxu İsanı tərk edir*

60Şagirdlərindən bir çoxu bu sözləri
eşidəndə dedi: «Bu söz qəlizdir. Bunu
kim anlaya bilər?» 61Lakin İsa şagird-
lərinin buna görə deyindiklərini du-
yaraq onlara dedi: «Bu söz sizi büdrə-
dirmi? 62Yaxşı, bəs Bəşər Oğlunun əv-
vəllər olduğu yerə qalxdığını görsəniz,
necə? 63Həyat verən Ruhdur, cismani
təbiətinsə heç faydası yoxdur. Sizə
söylədiyim sözlər Ruh və həyat gətirir.
64Lakin sizin aranızda iman etməyən-
lər də var». Çünki İsa iman etməyən-
lərin və Ona xəyanət edəcək adamın
kim olduğunu əvvəlcədən bilirdi. 65O
dedi: «Buna görə də sizə söylədim ki,
əgər Ata bir kəsə imkan verməsə, o
Mənim yanıma gələ bilməz».

66Bunlardan sonra şagirdlərinin
çoxu İsadan ayrılıb daha Onunla gəz-

a **6:58** *Yediyi* – bəzi əlyazmalarda *yediyi manna.* **6:45** *Yeş. 54:13*

John Lat:Azeri Bible Cyrillic 16.01.2009 12:24 Page 140



mirdi. **67**Onda İsa On İki şagirdə dedi: «Yoxsa siz də Məni tərk etmək istəyirsiniz?» **68**Şimon Peter Ona cavab verdi: «Ya Rəbb, biz kimin yanına gedək? Əbədi həyatın sözlərini söyləyən Sənsən. **69**Biz də iman etmişik və bilirik ki, Allahın Müqəddəsi[a] Sənsən». **70**İsa onlara dedi: «Siz On İki şagirdi Mən seçmədimmi? Amma sizdən biri iblisdir». **71**O bu sözləri Şimon İskaryot oğlu Yəhuda barədə söylədi, çünki On İki şagirddən biri olduğu halda İsaya xəyanət edəcəkdi.

### *İsa Çardaqlar bayramına gedir*

**7** **1**Bu hadisələrdən sonra İsa yalnız Qalileyada gəzirdi. Yəhudi başçılarının Onu öldürməyə çalışdıqlarına görə daha Yəhudeyada gəzmək istəmirdi. **2**Yəhudilərin Çardaqlar bayramı yaxınlaşırdı. **3**Qardaşları İsaya dedi: «Buradan çıxıb Yəhudeyaya get ki, şagirdlərin də etdiyin işləri görsün. **4**Çünki Özünü məşhur etməyə çalışan adam heç nəyi gizlicə etməz. Sən bunları edirsənsə, Özünü dünyaya tanıtdır». **5**Çünki qardaşları da Ona iman etmirdi. **6**Onda İsa onlara dedi: «Mənim vaxtım hələ gəlməyib, sizin üçünsə hər vaxt münasibdir. **7**Dünya sizə nifrət edə bilməz, amma Mənə nifrət edir, çünki Mən onun əməllərinin şər olduğuna şəhadət edirəm. **8**Siz bayrama gedin, Mənsə hələ vaxtım tamam olmadığı üçün bu bayrama getməyəcəyəm». **9**İsa bu sözləri söylədikdən sonra Qalileyada qaldı.

**10**Ancaq Onun qardaşları bayrama gedəndən sonra O da açıq yox, gizlicə bayrama getdi. **11**Yəhudi başçıları bayramda İsanı axtararaq «O haradadır?» deyirdilər. **12**Camaat arasında Onun barəsində çoxlu dedi-qodu gəzirdi. Bəzisi «yaxşı adamdır», başqaları isə «xeyr, xalqı aldadır» deyirdi. **13**Lakin Yəhudi başçılarının qorxusundan heç kəs Onun barəsində açıq danışmırdı.

**14**Artıq bayramın yarısı keçəndə İsa məbədə gedib təlim öyrətməyə başladı. **15**Yəhudi başçıları buna heyrətlənib dedilər: «Bu Adam yaxşı təhsil almadığı halda necə olub ki savadlıdır?» **16**İsa da onlara cavab verdi: «Öyrətdiyim təlim Mənim deyil, Məni Göndərənindir. **17**Kim Onun iradəsini yerinə yetirmək istəyirsə, təlimimin Allahdan olduğunu, yoxsa Özümdən söylədiyimi biləcək. **18**Özündən söyləyən öz izzətini axtarır, lakin Onu Göndərənə izzət axtaran Şəxs haqdır, Onda yalan olmaz. **19**Qanunu sizə Musa vermədimi? Amma heç biriniz Qanuna əməl etmirsiniz. Niyə Məni öldürməyə çalışırsınız?» **20**Xalq cavab verdi: «Səndə cin var. Kim Səni öldürməyə çalışır?» **21**İsa onlara dedi: «Mən bir iş gördüm və hamınız buna heyrətlənirsiniz. **22**Musa sizə sünnət etməyi buyurdu, amma Musa yox, ata-babalarınız bunun əsasını qoydu. Siz Şənbə günü də adamı sünnət edirsiniz. **23**Musanın Qanunu pozulmasın deyə Şənbə günü adam sünnət edilir; bəs Şənbə günü bir adamı tamam sağaltdığıma görə Mənə niyə qəzəblənirsiniz? **24**Zahirə görə mühakimə etməyin, ədalətlə mühakimə edin».

---

a **6:69** *Allahın Müqəddəsi* – bəzi əlyazmalarda *Məsih, var olan Allahın Oğlu* (Mat. 16:16).
**6:68-69** *Mat. 16:16; Mark 8:29; Luka 9:20* **7:2** *Lev. 23:34; Qanun. 16:13*
**7:22** *Yar. 17:10; Lev. 12:3* **7:23** *Yəh. 5:9*

John Lat:Azeri Bible Cyrillic 16.01.2009 12:24 Page 141



### *İsa Məsihdirmi?*

25Onda Yerusəlimlilərin bəzisi dedi:
«Öldürməyə çalışdıqları Bu deyilmi?
26Budur, O açıq danışır, amma Ona
bir söz demirlər. Bəlkə rəhbərlər,
doğrudan da, Onun Məsih olduğunu
öyrəndilər? 27Ancaq bu adamın hara-
dan olduğunu bilirik, halbuki Məsih
gələndə Onun haradan olduğunu heç
kəs bilməyəcək». 28İsa məbəddə təlim
öyrədərkən nida edib dedi: «Doğru-
dan da, Məni tanıyırsınızmı, haradan
gəldiyimi bilirsinizmi? Mən Özümdən
gəlmədim, lakin Məni Göndərən haq-
dır. Siz Onu tanımırsınız, 29Mənsə
Onu tanıyıram, çünki Ondan gəlmi-
şəm və O Məni göndərdi». 30Bu
sözlərə görə İsanı tutmağa çalışdılar,
lakin heç kəs Ona toxunmadı, çünki
vaxtı hələ çatmamışdı. 31Ancaq xalq
arasından çoxu Ona iman edib dedi:
«Məsih gələndə bu Adamın etdiklə-
rindən çox əlamət göstərəcəkmi?»

32Fariseylər xalqın İsa haqqında
belə dedi-qodu etdiyini eşitdilər. Başçı
kahinlər və fariseylər Onu tutmaq
üçün mühafizəçilər göndərdi. 33İsa
dedi: «Bir az müddət də Mən sizinlə
olacağam, sonra isə Məni Göndərənin
yanına gedəcəyəm. 34Siz Məni axtarıb
tapmayacaqsınız və Mənim olacağım
yerə gələ bilməzsiniz». 35Bunun cava-
bında Yəhudilər öz aralarında dedilər:
«Bu Adam hara gedəcək ki, Onu tapa
bilməyəcəyik? Yunanlar arasına sə-
pələnmiş Yəhudilərin yanına gedib
Yunanlaramı təlim öyrədəcək? 36“Siz
Məni axtarıb tapmayacaqsınız və Mə-
nim olacağım yerə siz gələ bilməzsi-
niz” sözü ilə nə demək istəyir?»

37Bayramın sonuncu, təntənəli
günündə İsa qalxıb nida edərək dedi:
«Kim susayıbsa, yanıma gəlib içsin.
38Müqəddəs Yazılarda deyildiyi kimi,
Mənə iman edənin daxilindən həyat
suyu axan çaylar çıxacaq». 39Bunu
Ona iman edənlərin alacaqları Ruh
barədə söylədi. Ruh isə hələ yox idi,
çünki İsa hələ izzətlənməmişdi.

40Xalqın bir qismi bu sözləri eşidən-
də «Bu, doğrudan da, gəlməli olan
peyğəmbərdir» dedilər. 41Başqaları isə
«Bu, Məsihdir» söylədi, ancaq bəziləri
dedi: «Nə? Məsih Qalileyadanmı gəlir?
42Məgər Müqəddəs Yazılarda deyil-
mir ki, Məsih Davudun nəslindən, Da-
vudun yaşadığı Bet-Lexem kəndindən
gəlir?» 43Beləcə İsa barədə xalq ara-
sında fikir ayrılığı oldu. 44Bəziləri Onu
tutmaq istədi, amma heç kəs Ona
toxunmadı.

### *Yəhudi başçılarının imansızlığı*

45Buna görə də mühafizəçilər başçı
kahinlərin və fariseylərin yanına qa-
yıtdılar. Onlar mühafizəçilərdən «Niyə
Onu gətirmədiniz?» deyə soruşdu.
46Mühafizəçilər cavab verdilər: «Hələ
indiyəcən heç bir insan belə danış-
mayıb». 47Fariseylər onlara dedilər:
«Yoxsa sizi də aldadıb? 48Gör bir rəh-
bər yaxud bir farisey Ona iman et-
dimi? 49Bu Qanunu bilməyən xalqa
gəlincə, onlar lənətə gəlib!» 50Arala-
rından biri – bundan qabaq[a] İsanın
yanına gələn Nikodim onlara dedi:
51«Qanunumuza görə, bir adama qu-
laq asmadan və nə etdiyini bilmədən
onu mühakimə etmək doğrudurmu?»

---

a **7:50** *Bundan qabaq* – bəzi əlyazmalarda *gecə ikən.*

**7:37** *Lev. 23:36* **7:38** *Sül. 18:4; Yeş. 58:11; Yez. 47:1; Zək. 14:8* **7:40** *Qanun. 18:15-18*
**7:42** *2Şam. 7:12; Mik. 5:2* **7:50** *Yəh. 3:1-2*

John Lat:Azeri Bible Cyrillic 16.01.2009 12:24 Page 142



52 Onlar Nikodimə dedi: «Bəlkə sən də
Qalileyadansan? Araşdırsan, görərsən
ki, Qalileyadan peyğəmbər çıxmaz».

### *İsa və zinakar qadın*

53 Bundan sonra hər kəs öz evinə
getdi.

8 1 Lakin İsa Zeytun dağına getdi.
2 Səhər tezdən yenə məbədə gəldi.
Bütün xalq Onun yanına toplaşdı, O
da oturub onlara təlim öyrətməyə
başladı. 3 İlahiyyatçılar və fariseylər
zina üstündə tutulmuş bir qadını oraya
gətirdilər. Onu ortaya çıxarıb 4 İsaya
dedilər: «Müəllim, bu qadın zina edər-
kən əməlində yaxalandı. 5 Qanunda
Musa bizə əmr edib ki, belələrini
daşqalaq edək. Bəs Sən nə deyirsən?»
6 Bunu İsanı sınamaq üçün deyirdilər,
Onu ittiham etmək üçün bəhanə
axtarırdılar. Amma İsa əyilib barmağı
ilə yerə yazı yazmağa başladı. 7 Ondan
təkrar soruşduqları zaman dikəlib
onlara dedi: «Sizdən kim günahsızdır-
sa, qadına birinci daş atsın». 8 Sonra
yenə əyilib yerə yazı yazdı. 9 Bu sözləri
eşidənlər başda ağsaqqallar olmaqla
bir-bir oradan uzaqlaşdılar. İsanı tək
qoydular, qadın da ortada idi. 10 İsa
dikəlib ona dedi: «Qadın, onlar hara
getdilər? Bəs heç kim səni məhkum
etmədi?» 11 Qadın «heç kim, Ağa»
dedi. Onda İsa dedi: «Mən də səni
məhkum etmirəm, get, daha günah
etmə».[a]

### *Doğru şəhadət*

12 Sonra İsa yenə xalqa dedi: «Dün-
yanın nuru Mənəm. Mənim ardımca
gələn heç vaxt qaranlıqda gəzməyəcək,
həyat nuruna malik olacaq». 13 Fari-
seylər Ona dedilər: «Sən Öz barəndə
şəhadət edirsən, Sənin şəhadətin eti-
barlı deyil». 14 İsa onlara cavab verdi:
«Mən Öz barəmdə şəhadət etsəm də,
şəhadətim etibarlıdır, çünki haradan
gəlib hara gedəcəyimi bilirəm. Sizsə
Mənim haradan gəlib hara gedəcəyimi
bilmirsiniz. 15 Siz bəşər qaydalarına
görə mühakimə edirsiniz, Mənsə heç
kəsi mühakimə etmirəm. 16 Mən mü-
hakimə etsəm də, verdiyim hökm
doğrudur, çünki tək deyiləm, Məni
göndərən Ata da Mənimlədir. 17 Sizin
Qanununuzda da yazılıb ki, iki nəfərin
şəhadəti etibarlıdır. 18 Mən Öz barəm-
də şəhadət edirəm, Məni göndərən Ata
da Mənim barəmdə şəhadət edir».
19 Onda İsadan soruşdular: «Atan
haradadır?» İsa cavab verdi: «Siz nə
Məni, nə də Atamı tanıyırsınız. Əgər
Məni tanısaydınız, Atamı da tanıyar-
dınız». 20 İsa bu sözləri məbəddə, nəzir
qutuları olan yerdə təlim öyrədərkən
söylədi. Heç kəs də Onu tutmadı,
çünki vaxtı hələ gəlməmişdi.

21 Sonra İsa yenə onlara dedi: «Mən
çıxıb gedirəm, siz Məni axtaracaqsınız
və öz günahınız içində öləcəksiniz. Siz
Mənim gedəcəyim yerə gələ bil-
məzsiniz». 22 Onda Yəhudilər dedilər:
«Məgər O Özünü öldürəcək ki, "siz
Mənim gedəcəyim yerə gələ bilməz-
siniz" deyir?» 23 İsa onlara dedi: «Siz
aşağıdansınız, Mən yuxarıdanam, siz
bu dünyadansınız, Mənsə bu dün-
yadan deyiləm. 24 Buna görə də sizə
"günahlarınız içində öləcəksiniz"
dedim. Əgər inanmasanız ki, O Mə-
nəm, günahlarınız içində öləcəksiniz».
25 Onda «Sən Kimsən?» deyə İsadan
soruşdular. İsa onlara dedi: «Əvvəl-

---

a **8:11** 7:53-8:11-ə qədər ən qədim yunan əlyazmalarında yoxdur.

**8:5** *Lev. 20:10; Qanun. 22:22-24* **8:12** *Mat. 5:14; Yəh. 9:5* **8:13** *Yəh. 5:31* **8:17** *Qanun. 17:6; 19:15*

John Lat:Azeri Bible Cyrillic 16.01.2009 12:24 Page 143



cədən sizə nə söyləyirəmsə, Oyam.
26Sizin barənizdə söyləyəcəyim və
mühakimə edəcəyim çox şeylər var.
Lakin Məni göndərən haqdır və Mən
Ondan eşitdiklərimi dünyaya söylə-
yirəm». 27İsanın onlara Ata barədə
danışdığını anlamadılar. 28Onda İsa
dedi: «Bəşər Oğlunu yuxarı qaldırdı-
ğınız vaxt biləcəksiniz ki, O Mənəm və
Özümdən bir şey etmirəm, ancaq Ata
Mənə necə öyrədibsə, o cür danışıram.
29Məni Göndərən Mənimlədir. O
Məni tək qoymadı, çünki Mən daim
Onun xoşuna gələnləri edirəm». 30İsa
bu sözləri söylədiyi zaman bir çox
adam Ona iman etdi.

### *İbrahim övladları və iblis övladları*

31O zaman İsa Ona inanmış Yəhu-
dilərə dedi: «Əgər siz Mənim sözümə
sadiq qalsanız, həqiqətən, Mənim
şagirdlərimsiniz. 32Onda siz həqiqəti
biləcəksiniz və həqiqət sizi azad edə-
cək». 33Yəhudilər İsaya cavab verdi-
lər: «Biz İbrahimin nəslindənik, heç
kəsə heç vaxt kölə olmamışıq. Bəs Sən
niyə "azad olacaqsınız" deyirsən?»
34İsa onlara dedi: «Doğrusunu, doğ-
rusunu sizə deyirəm: günah edən hər
kəs günahın köləsidir. 35Kölə evdə
daim qalmaz, oğulsa daim qalar.
36Buna görə də əgər Oğul sizi azad
etsə, həqiqətən də, azad olacaqsınız.
37İbrahimin nəslindən olduğunuzu
bilirəm, ancaq bununla belə, Məni
öldürməyə çalışırsınız. Çünki Mənim
sözüm sizin ürəyinizdə yer tapmır.
38Mən Atanın yanında gördüklərimi
söyləyirəm, sizsə öz atanızdan eşitdik-
lərinizi[a] yerinə yetirirsiniz».

39Onlar İsanın cavabında «bizim
atamız İbrahimdir» dedilər. İsa onlara
dedi: «İbrahimin övladları olsaydınız,
İbrahimin etdiyi əməlləri edərdiniz.
40Sizsə indi Məni – Allahdan eşitdiyi
həqiqəti sizə söyləyən Adamı öldür-
məyə çalışırsınız. İbrahim belə etmədi.
41Siz öz atanızın əməllərini edirsiniz».
Ona dedilər: «Biz zinadan doğulma-
mışıq, bizim bir Atamız var, O da
Allahdır». 42İsa onlara dedi: «Əgər
Allah sizin Atanız olsaydı, Məni se-
vərdiniz, çünki Mən Allahdan çıxıb
gəlmişəm və indi buradayam. Mən
Özümdən gəlmədim, lakin O Məni
göndərdi. 43Söylədiyimi niyə anlamır-
sınız? Çünki Mənim sözümü dinləyə
bilmirsiniz. 44Siz atanız iblisdənsiniz
və atanızın arzularını yerinə yetirmək
istəyirsiniz. O, başlanğıcdan qatil idi
və həqiqətə sadiq qalmadı, çünki onda
həqiqət yoxdur. Yalan söyləyəndə öz
xasiyyətinə görə söyləyir, çünki ya-
lançıdır və yalanın atasıdır. 45Mənsə
həqiqəti söylədiyim üçün siz Mənə
inanmırsınız. 46Sizdən kim sübut edər
ki, Mən bir günah etmişəm? Mən həqi-
qəti söyləyirəmsə, niyə Mənə inan-
mırsınız? 47Allahdan olan şəxs Allahın
sözlərini dinləyər. Sizsə dinləmirsiniz,
çünki Allahdan deyilsiniz».

### *İsanın izzəti*

48Yəhudilər cavabında Ona dedilər:
«Sən Samariyalısan və Səndə cin var.
Məgər doğru demirikmi?» 49İsa cavab
verdi: «Məndə cin yoxdur, amma
Atama hörmət edirəm, sizsə Məni
hörmətdən salırsınız. 50Mən Özümə
izzət axtarmıram, Mənə izzət axtaran
və bu işi mühakimə edən Biri var.
51Doğrusunu, doğrusunu sizə deyi-

---

a **8:38** *Atanızdan eşitdiklərinizi* – bəzi əlyazmalarda *atanızın yanında gördüklərinizi.*
**8:33** *Mat. 3:9; Luka 3:8*

John Lat:Azeri Bible Cyrillic 16.01.2009 12:24 Page 144



rəm: kim Mənim sözümə riayət edərsə,
heç vaxt ölüm görməyəcək». **52**Yəhu-
dilər Ona dedilər: «İndi bildik ki, Sən-
də cin var. İbrahim də öldü, peyğəm-
bərlər də. Amma Sən “kim Mənim
sözümə riayət edərsə, heç vaxt
ölməyəcək” deyirsən. **53**Yoxsa Sən
atamız İbrahimdən də üstünsən? O da
öldü, peyğəmbərlər də. Axı Sən Özünü
kim sayırsan?» **54**İsa cavab verdi:
«Əgər Mən Özümü izzətləndirirəmsə,
Mənim izzətim heçdir, amma Məni
izzətləndirən Atamdır. Siz Onun
barəsində “Allahımızdır” deyirsiniz,
**55**lakin Onu tanımırsınız. Mənsə Onu
tanıyıram. Əgər “Onu tanımıram”
desəydim, sizin kimi yalançı olardım.
Lakin Mən Onu tanıyıram və sözünə
riayət edirəm. **56**Atanız İbrahim
Mənim günümü görəcəyi üçün şad
oldu, görüb sevindi». **57**Buna görə
Yəhudilər Ona dedilər: «Sənin heç əlli
yaşın yoxdur, İbrahimi necə görmü-
sən?» **58**İsa onlara dedi: «Doğrusunu,
doğrusunu sizə deyirəm: İbrahim
olmazdan qabaq Var Olan Mənəm».
**59**O zaman İsanı daşqalaq etmək üçün
yerdən daş götürdülər, ancaq İsa giz-
ləndi və məbəddən çıxdı.[a]

### *Kor adamın sağalması*

**9** **1**İsa yolla gedərkən anadangəlmə
kor bir adam gördü. **2**Şagirdləri
Ondan soruşdu: «Rabbi, kim günah
etdi ki, bu adam kor doğuldu: özü,
yoxsa ata-anası?» **3**İsa cavab verdi:
«Nə özü günah etdi, nə də ata-anası.
Amma Allahın işləri onun həyatında
görünsün deyə belə oldu. **4**Nə qədər ki
gündüzdür, Məni Göndərənin işlərini
görməliyik.[b] Tezliklə gecə gəlir, o
zaman heç kim işləyə bilməz. **5**Dün-
yada olduğum müddətdə dünyanın
nuru Mənəm». **6**Bu sözləri deyəndən
sonra yerə tüpürdü, tüpürcəklə palçıq
düzəltdi və palçığı kor adamın göz-
lərinə sürtdü. **7**Sonra ona dedi: «Get,
Şiloah hovuzunda yuyun». «Şiloah»
«göndərilmiş» deməkdir. O da gedib
yuyundu və gözləri açılmış halda
qayıtdı. **8**Qonşuları və əvvəllər onu bir
dilənçi kimi[c] tanıyanlar deyirdilər:
«Əvvəllər oturub dilənən adam bu
deyilmi?» **9**Bəzisi «odur» dedi, bəzisi
«xeyr, amma ona oxşayır» dedi. Özü
isə «mənəm» dedi. **10**Ondan «Elə isə
gözlərin necə açıldı?» deyə soruşdular.
**11**O cavab verdi: «İsa deyilən Adam
palçıq düzəldib gözlərimə sürtdü və
mənə “Şiloah hovuzuna get, yuyun”
dedi, mən də gedib yuyundum və
gözlərim açıldı». **12**Ondan «Bəs İsa
haradadır?» deyə soruşdular. O isə
«bilmirəm» dedi.

### *Fariseylərin istintaqı*

**13**Əvvəllər kor olan adamı farisey-
lərin yanına apardılar. **14**İsanın palçıq
düzəldib onun gözlərini açdığı gün
Şənbə günü idi. **15**Fariseylər o adam-
dan gözlərinin necə açıldığını soruş-
dular. O adam da onlara dedi: «O
mənim gözlərimə palçıq qoydu, mən
də yuyundum və indi görürəm».
**16**Onda fariseylərdən bəzisi dedi: «Bu
Adam Allahdan gəlməyib, çünki
Şənbə gününə riayət etmir». Başqaları
isə dedi: «Günahkar adam belə əla-

a **8:59** *Məbəddən çıxdı* – bəzi əlyazmalarda *onların arasından keçərək məbəddən çıxdı. Sonra yoluna davam etdi.*

b **9:4** *Görməliyik* – bəzi əlyazmalarda *görməliyəm.*

c **9:8** *Bir dilənçi kimi* – bəzi əlyazmalarda *kor olanda.*

**8:58** *Çıx. 3:14; Yəh. 1:1; 8:24,28; Vəhy 1:4-6,8* **9:5** *Mat. 5:14; Yəh. 8:12*

John Lat:Azeri Bible Cyrillic 16.01.2009 12:24 Page 145



mətləri necə göstərə bilər?» Onların
arasında fikir ayrılığı düşdü. 17Onda
yenə kor adamdan soruşdular: «Bəs
sən bu Adam barədə nə deyirsən? Axı
O sənin gözlərini açdı». Kor adam «O,
peyğəmbərdir» dedi.

18Yəhudi başçıları gözləri açılmış
adamın ata-anasını çağırmayınca
onun kor olub gözləri açıldığına inan-
madılar. 19Ata-anasından soruşdular:
«Kor doğulduğunu söylədiyiniz oğlu-
nuz budurmu? Elə isə necə olur ki, indi
görür?» 20Ata-anası dedi: «Bilirik ki,
bu bizim oğlumuzdur və kor doğulub.
21Ancaq bilmirik ki, indi necə görür ya
gözlərini kim açıb. Özündən soruşun.
Həddi-büluğa çatıb, qoy özü barədə
özü danışsın». 22Ata-anası Yəhudi
başçılarından qorxduqları üçün bu
sözləri söylədilər, çünki Yəhudi baş-
çıları artıq qərara almışdılar ki, İsanın
Məsih olduğunu iqrar edən hər kəs
sinaqoqdan qovulsun. 23Buna görə də
o adamın ata-anası «həddi-büluğa
çatıb, özündən soruşun» dedi.

24Yəhudi başçıları əvvəllər kor olan
adamı ikinci dəfə çağırıb ona dedilər:
«Allahın izzəti naminə doğru söylə.
Biz bu Adamın günahkar olduğunu
bilirik». 25O da cavab verdi: «O
Adamın günahkar olub-olmadığını
bilmirəm. Bir şeyi bilirəm ki, əvvəl kor
idim, amma indi görürəm». 26Ondan
soruşdular: «O sənə nə etdi? Gözlərini
necə açdı?» 27Onlara cavab verdi:
«İndicə sizə söylədim, amma qulaq
asmadınız. Niyə bunu yenə eşitmək
istəyirsiniz? Bəlkə siz də Onun şagirdi
olmaq istəyirsiniz?» 28Onu söyüb
dedilər: «Onun şagirdi sənsən, bizsə
Musanın şagirdləriyik. 29Biz Allahın
Musa ilə danışdığını bilirik, bu Ada-
mınsa haradan gəldiyini bilmirik».
30O adam onlara dedi: «Qəribədir ki,
siz Onun haradan gəldiyini bilmir-
siniz, amma O mənim gözlərimi açdı.
31Allahın günahkarlara qulaq asmadı-
ğını bilirik, lakin mömin olub Allahın
iradəsinə əməl edən adama Allah qu-
laq asır. 32Əzəldən bəri eşidilməyib ki,
kimsə anadangəlmə kor bir adamın
gözlərini açsın. 33Əgər bu Adam Al-
lahdan gəlməsəydi, heç nə edə bilməz-
di». 34Onlar o adama cavab verdilər:
«Başdan-ayağa günah içində doğul-
dun. İndi sənmi bizə dərs verirsən?»
Onda onu bayıra atdılar.

### *Ruhani korluq*

35O adamı bayıra atdıqlarını İsa
eşitdi və onu tapıb dedi: «Sən Bəşər
Oğluna[a] iman edirsənmi?» 36O soruş-
du: «Ağa, O kimdir ki, Ona iman
edim?» 37İsa ona dedi: «İndi gördüyün
və səninlə danışan Adam Odur». 38O
da «ya Rəbb, iman edirəm» dedi və
İsaya səcdə etdi. 39İsa dedi: «Mühа-
kimə etmək üçün bu dünyaya gəldim
ki, qoy görməyənlər görsün, görənlərsə
kor olsun».

40Onun yanında olan bəzi fariseylər
bu sözləri eşidib «Yoxsa biz də
koruq?» deyə Ondan soruşdular. 41İsa
onlara dedi: «Əgər kor olsaydınız,
günahınız olmazdı. Amma indi “gö-
rürük” dediyiniz üçün günahınız üs-
tünüzdə qalır.

### *Yaxşı çoban*

10 1Doğrusunu, doğrusunu sizə
deyirəm: qoyun ağılına qapıdan
girməyib başqa yerdən aşan oğru və

a **9:35** *Bəşər Oğluna* – bəzi əlyazmalarda *Allahın Oğluna.*

John Lat:Azeri Bible Cyrillic 16.01.2009 12:24 Page 146



quldurdur. 2 Amma qapıdan girən
qoyunların çobanıdır. 3 Keşikçi qapını
onun üzünə açar və qoyunlar onun
səsinə qulaq asar. O da öz qoyunlarını
adları ilə çağırar və onları çölə çıxarar.
4 Öz qoyunlarının hamısını çölə çıxa-
randan sonra onların önündə gedər və
qoyunlar da ardınca gedər, çünki
onun səsini tanıyırlar. 5 Amma yad
adamın ardınca getməzlər, ondan
qaçarlar, çünki yad adamların səsini
tanımazlar». 6 İsa bu məsəli onlara
söylədi, amma onlar İsanın sözlərinin
mənasını anlamadılar.

7 İsa yenə onlara dedi: «Doğrusunu,
doğrusunu sizə deyirəm: qoyunların
qapısı Mənəm. 8 Məndən əvvəl gələn-
lərin hamısı oğru və quldur idi, amma
qoyunlar onlara qulaq asmadı. 9 Qapı
Mənəm, kim Məndən girərsə, xilas
olar, girib-çıxar və özünə otlaq tapar.
10 Oğru yalnız qarət etmək, öldürmək
və tələf etmək üçün gəlir. Mənsə gəl-
dim ki, onlar həyata, bol həyata malik
olsun. 11 Yaxşı çoban Mənəm, yaxşı
çoban qoyunlar uğrunda canını qur-
ban verər. 12 Qoyunların çobanı olma-
yan muzdur isə canavarın gəldiyini
görəndə onları atıb qaçar, çünki
qoyunların sahibi deyil. Canavar da
onları qapıb pərən-pərən salar.
13 Muzdur qaçar, çünki muzdurdur,
qoyunlar üçün qayğı çəkməz.
14-15 Yaxşı çoban Mənəm. Necə ki Ata
Məni tanıyır və Mən Atanı tanıyıram,
eləcə də özümünküləri tanıyıram,
özümünkülər də Məni tanıyır. Mən
quzular uğrunda canımı qurban ve-
rirəm. 16 Bu ağıldan olmayan başqa
quzularım var ki, onları da gətirmə-
liyəm. Onlar da səsimi eşidəcək, beləcə
tək sürü, tək Çoban olacaq.

17 Buna görə də Ata Məni sevir,
çünki Mən canımı qurban verirəm ki,
sonra onu geri alım. 18 Canımı Mən-
dən heç kəs ala bilməz, amma onu
Özüm verirəm. Onu verməyə də, sonra
geri almağa da ixtiyarım var. Bu əmri
Atamdan almışam».

19 Bu sözlər üstündə Yəhudilər
arasında yenə fikir ayrılığı düşdü.
20 Onların çoxu dedi: «Onda cin var,
dəlidir. Niyə Ona qulaq asırsınız?»
21 Başqaları isə dedilər: «Bunlar cinə
tutulmuş adamın sözləri deyil. Cin heç
kor adamın gözlərini aça bilərmi?»

### *Yəhudilərin İsa ilə mübahisəsi*

22 O vaxt Yerusəlimdə Təqdis bay-
ramı keçirilirdi. Qış idi. 23 İsa məbədin
həyətində olan Süleymanın eyvanında
gəzirdi. 24 Yəhudilər İsanın ətrafına
yığılıb Ona dedilər: «Nə vaxta qədər
ürəyimizi intizarda saxlayacaqsan?
Əgər Sən Məsihsənsə, bizə açıq söylə».
25 İsa onlara cavab verdi: «Sizə söylə-
dim, ancaq buna inanmırsınız. Atamın
adı ilə gördüyüm işlər Mənim barəmdə
şəhadət edir. 26 Amma siz inanmır-
sınız, çünki[a] Mənim quzularımdan
deyilsiniz. 27 Quzularım səsimi eşidir,
Mən də onları tanıyıram və Mənim
ardımca gəlirlər. 28 Mən onlara əbədi
həyat verirəm. Onlar heç vaxt həlak
olmayacaq və heç kim onları əlimdən
qapmayacaq. 29 Onları Mənə verən
Atam hamıdan böyükdür. Onları heç
kim Atanın əlindən qapa bilməz.
30 Mən və Ata birik».

31 Yəhudilər yenə yerdən daş gö-
türdülər ki, Onu daşqalaq etsinlər.
32 İsa onlara dedi: «Sizə Atadan gələn

---

a **10:26** *Çünki* – bəzi əlyazmalarda *çünki sizə dediyim kimi.*
**10:14-15** *Mat. 11:27; Luka 10:22*

John Lat:Azeri Bible Cyrillic 16.01.2009 12:24 Page 147



çoxlu yaxşı iş göstərdim. Siz bunların
hansına görə Məni daşqalaq etmək
istəyirsiniz?» **33**Yəhudilər Ona cavab
verdilər: «Səni yaxşı işinə görə deyil,
insan olduğun halda Özünü Allah
sayaraq küfr etdiyinə görə daşqalaq
edirik». **34**İsa onlara dedi: «Məgər
sizin öz Qanununuzda yazılmayıb ki,
"demişəm: ‹Siz allahlarsınız›"? **35**Allah
Öz kəlamını göndərdiyi adamlara
"allahlarsınız" deyir. Müqəddəs Yazı
ki pozula bilməz. **36**Bəs siz niyə
"Allahın Oğluyam" dediyim üçün
Mənə – Atanın təqdis edib dünyaya
göndərdiyi Şəxsə "küfr edirsən" deyir-
siniz? **37**Əgər Atamın işlərini görmü-
rəmsə, Mənə inanmayın. **38**Amma bu
işləri görürəmsə, Mənə inanmasanız
da, bunlara inanın. Onda Atanın
Məndə, Mənim də Atada olduğumu
anlayıb bilərsiniz». **39**Onlar yenə İsanı
tutmağa çalışdı, amma O, əllərindən
sıyrılıb çıxdı.

**40**İsa yenə İordanın o biri sahilinə,
Yəhyanın əvvəllər vəftiz etdiyi yerə
getdi və orada qaldı. **41**Çoxlu adam
Onun yanına gəlib dedi: «Yəhya heç
bir əlamət göstərməsə də, onun bu
Adam barədə dediyi bütün sözlər
doğru çıxdı». **42**Bir çox adam da orada
İsaya iman etdi.

### *İsa ölən Lazarı diriltdir*

**11** **1**Lazar adlı bir adam xəstə-
lənmişdi. O, Məryəmlə bacısı
Martanın yaşadığı Bet-Anya kəndin-
dən idi. **2**Rəbbin üzərinə ətirli yağ
çəkib ayaqlarını saçları ilə silən həmin
Məryəm idi. Xəstələnən Lazar onun
qardaşı idi. **3**Bu səbəbdən iki bacı «ya
Rəbb, sevdiyin adam xəstədir» deyə
İsaya xəbər göndərdi. **4**İsa bunu eşidib
dedi: «Bu xəstəliyin nəticəsi ölüm yox,
Allahın izzəti və Allah Oğlunun bu-
nunla izzət qazanması olacaq».

**5**İsa Martanı, onun bacısını və
Lazarı sevirdi. **6**Buna görə də Lazarın
xəstələndiyini eşidəndə olduğu yerdə
daha iki gün qaldı. **7**Sonra isə şagird-
lərə «yenə Yəhudeyaya gedək» dedi.
**8**Şagirdlər Ona dedilər: «Rabbi, ora-
dakı Yəhudilər bir az əvvəl Səni daş-
qalaq etməyə çalışırdı. Sən yenə də
oraya qayıdırsan?» **9**İsa cavab verdi:
«Gündə on iki saat yoxdurmu? Kim
gündüz vaxtı gəzərsə, büdrəməz, çünki
bu dünyanın nurunu görür. **10**Lakin
kim gecə vaxtı gəzərsə, büdrəyər, çünki
daxilində nur yoxdur». **11**İsa bu sözləri
söylədikdən sonra onlara dedi: «Dos-
tumuz Lazar uyuyub. Mən onu oyat-
maq üçün gedirəm». **12**Onda şagirdlər
Ona dedilər: «Əgər uyuyubsa, sağala-
caq». **13**İsa onun ölümü barədə danış-
mışdı, amma onlar elə bildilər ki,
yuxuya getdiyini söyləyib. **14**Onda İsa
onlara açıqca dedi: «Lazar ölüb.
**15**Mən də sizin uğrunuzda, iman et-
məyiniz üçün orada olmadığıma sevi-
nirəm. Amma gəlin onun yanına ge-
dək». **16**«Əkiz» adlanan Tomas o biri
şagirdlərə dedi: «Biz də gedək ki,
Onunla ölək».

**17**İsa gəlib Lazarın artıq dörd gün-
dən bəri qəbirdə olduğunu bildi.
**18**Bet-Anya ilə Yerusəlim arasında on
beş stadi[a] məsafə var idi. **19**Bir çox
Yəhudi Marta və Məryəmə qardaş-
larının ölümünə görə təsəlli verməyə
gəlmişdi. **20**Marta İsanın gəldiyini
eşidəndə Onu qarşılamağa çıxdı,
ancaq Məryəm evdə oturmuşdu.

a **11:18** *On beş stadi* – təqribən 3 km.

**10:33** *Lev. 24:16* **10:34** *Zəb. 82:6* **10:40** *Yəh. 1:28* **11:1** *Luka 10:38-39* **11:2** *Yəh. 12:3*

John Lat:Azeri Bible Cyrillic 16.01.2009 12:24 Page 148



21 Marta İsaya dedi: «Ya Rəbb, əgər
Sən burada olsaydın, qardaşım
ölməzdi. 22 Ancaq bilirəm ki, Sən indi
də Allahdan nə diləsən, O Sənə
verəcək». 23 İsa ona «qardaşın diriləcək»
dedi. 24 Marta Ona dedi: «Bilirəm
ki, dirilmə zamanı, son gündə o da
diriləcək». 25 İsa ona dedi: «Dirilmə və
həyat Mənəm. Mənə iman edən ölsə
də, yaşayar, 26 yaşayıb Mənə iman
edən də heç vaxt ölməz. Buna inanırsanmı?»
27 Marta Ona cavab verdi:
«Bəli, ya Rəbb, inanıram ki, dünyaya
gəlməli olan Allahın Oğlu Məsih Sənsən».

28 Marta bunu söylədikdən sonra
gedib bacısı Məryəmi gizlicə çağırdı və
dedi: «Müəllim buradadır, səni çağırır».
29 Məryəm bunu eşidən kimi tez
qalxıb İsanın yanına getdi. 30 İsa hələ
kəndə girməyib Martanın Onu qarşıladığı
yerdə qalmışdı. 31 Məryəmlə
birgə evdə olan və ona təsəlli verən
Yəhudilər qadının tez qalxıb bayıra
çıxdığını görəndə elə bildilər ki,
ağlamaq üçün qəbirin yanına gedir.
Buna görə də onun ardınca getdilər.
32 Məryəm İsanın olduğu yerə gəlib
Onu gördü və ayaqlarına düşüb dedi:
«Ya Rəbb, əgər Sən burada olsaydın,
qardaşım ölməzdi». 33 İsa onun və
yanında gələn Yəhudilərin ağladığını
görəndə əhvalı pozuldu və təlaşa
düşdü. 34 İsa onlardan «Mərhumu haraya
qoymusunuz?» deyə soruşdu.
Ona «Ağa, gəl bax» dedilər. 35 İsa ağladı.
36 Onda Yəhudilər «Bax onu necə
də sevirmiş!» söylədilər. 37 Lakin
onlardan bəzisi dedi: «Korun gözlərini
açan bu Şəxs bir şey edə bilməzdi ki,
bu adam ölməsin?»

38 O zaman İsa yenə əhvalı pozulmuş
halda qəbirin yanına gəldi. Qəbir
bir mağara idi və ağzına daş qoyulmuşdu.
39 İsa «daşı götürün» dedi.
Mərhumun bacısı Marta Ona dedi:
«Ya Rəbb, artıq iylənib, çünki öldüyü
dörd gündür». 40 İsa dedi: «Axı Mən
sənə söyləmədimmi, iman etsən, Allahın
izzətini görəcəksən?» 41 Beləcə
daşı[a] götürdülər. İsa da başını yuxarı
qaldırıb dedi: «Ey Ata, Məni eşitdiyin
üçün Sənə şükür edirəm. 42 Bilirəm ki,
Məni həmişə eşidirsən. Lakin bunu
ətrafımda duran xalq üçün söylədim
ki, Məni Sən göndərdiyinə inansınlar».
43 Bu sözləri söylədikdən sonra «Lazar,
bayıra çıx!» deyə bərkdən qışqırdı.
44 Ölü də bayıra çıxdı. Onun əl-ayağı
sarğılarla və üzü dəsmalla bağlanmışdı.
İsa onlara «onu açın və buraxın
getsin» dedi.

45 Onda Məryəmin yanına gələn və
İsanın nə etdiyini görən Yəhudilərin
bir çoxu Ona iman etdi. 46 Lakin onlardan
bəzisi fariseylərin yanına gedib
İsanın nə etdiyini onlara danışdı.

### *Fariseylərin İsanı öldürmək niyyətləri*

*(Mat. 26:1-5; Mark 14:1-2; Luka 22:1-2)*

47 Onda başçı kahinlər və fariseylər
Ali Şuranı toplayıb dedilər: «Nə edək?
Bu Adam çoxlu əlamət göstərir.
48 Əgər Ona mane olmasaq, hamı Ona
iman edəcək. Romalılar da gəlib məbədimizi
və millətimizi məhv edəcək».
49 Orada olanlardan biri, həmin il baş
kahin olan Qayafa onlara dedi: «Siz
heç nə bilmirsiniz. 50 Başa düşmürsünüz
ki, bütün bu millətin məhv olmağındansa
bir Adamın xalq uğrunda
ölməsi sizin üçün[b] daha yaxşıdır?» 51 O

a **11:41** *Daşı* – bəzi əlyazmalarda *ölünün yatdığı yerdə olan daşı.*
b **11:50** *Sizin üçün* – bəzi əlyazmalarda *bizim üçün.*

John Lat:Azeri Bible Cyrillic 16.01.2009 12:24 Page 149



bu sözləri özündən söyləmədi, lakin o
il baş kahin olduğu üçün peyğəmbərlik
edib xəbər verdi ki, İsa bu millətin
uğrunda – 52təkcə millətin uğrunda
deyil, Allahın hər tərəfə səpələnmiş
övladlarını bir yerə toplamaq üçün
öləcək. 53Beləcə o gündən etibarən
İsanı öldürməyi qərara aldılar.

54Buna görə də İsa daha Yəhudi-
lərin arasında açıq gəzmirdi. Oradan
çöllüyə yaxın diyara, Efrayim adlanan
şəhərə getdi və şagirdlərlə orada qaldı.

55Yəhudilərin Pasxa bayramı ya-
xınlaşırdı. Çoxlu adam paklanmaq
üçün Pasxadan qabaq kəndlərdən
Yerusəlimə getdi. 56Onlar İsanı axta-
rırdılar və məbəddə dayanıb bir-bir-
lərinə deyirdilər: «Necə fikirləşirsiniz?
O, bayrama heç gəlməyəcəkmi?»
57Başçı kahinlər və fariseylər Onu
tutmaq məqsədi ilə «harada olduğunu
kim bilirsə, göstərsin» deyə əmr ver-
mişdilər.

### *Məryəmin İsaya hədiyyəsi*

*(Mat. 26:6-13; Mark 14:3-9)*

12 1Pasxadan altı gün əvvəl İsa
Bet-Anyaya gəldi. İsanın ölülər
arasından diriltdiyi Lazar da orada
idi. 2Orada İsanın şərəfinə ziyafət
verdilər. Marta xidmət edirdi. Lazar
da İsa ilə birgə süfrə arxasında otu-
ranların arasında idi. 3Məryəm isə bir
litra[a] çox qiymətli xalis nard yağını
götürərək İsanın ayaqlarına çəkib
onları saçları ilə sildi. Yağın ətri evi
bürüdü. 4Lakin İsanın şagirdlərindən
biri, Ona xəyanət edəcək Yəhuda
İskaryot dedi: 5«Nə üçün bu ətir üç yüz
dinara satılıb yoxsullara verilmədi?»
6Bu sözü yoxsulların qayğısına qaldığı
üçün deyil, oğru olduğuna görə söy-
lədi, çünki özündə olan pul qutusuna
qoyulanların bir hissəsini oğurlayırdı.
7Onda İsa dedi: «Qadını rahat burax,
qoy bunu Mənim dəfn günüm üçün
saxlasın. 8Çünki yoxsullar həmişə sizin
yanınızdadır, Mənsə həmişə yanınızda
olmayacağam».

9Yəhudilərdən böyük bir kütlə İsa-
nın orada olduğunu öyrənəndə həm
İsaya görə, həm də Onun ölülər ara-
sından diriltdiyi Lazarı görmək üçün
oraya gəldi. 10Onda başçı kahinlər öz
aralarında Lazarı da öldürməyi qərara
aldılar. 11Çünki Lazara görə çoxlu
Yəhudi gedib İsaya iman edirdi.

### *İsanın Yerusəlimə daxil olması*

*(Mat. 21:1-11; Mark 11:1-11; Luka 19:28-40)*

12Ertəsi gün bayrama gələn böyük
kütlə İsanın Yerusəlimə gələcəyini
eşidəndə 13xurma budaqları götürərək
Onu qarşılamağa çıxdı. Onlar
«Hosanna![b]
Rəbbin ismi ilə gələn İsrailin
Padşahına alqış olsun!»
deyə qışqırırdı. 14İsa bir sıpa tapıb
belinə mindi. Necə ki yazılıb:
15«Ey Sion qızı,[c] qorxma.
Bax Padşahın bir sıpaya minib
gəlir».
16Şagirdləri o zaman bu şeyləri an-
lamadılar. Lakin İsa izzətlənəndən
sonra barəsində bunun yazıldığını və
xalqın Ona nə etdiyini yada saldılar.
17İsanın Lazarı qəbirdən çağırıb ölülər
arasından diriltdiyi zaman Onun

---

a **12:3** *Bir litra* – təqribən 300 qr.
b **12:13** *Hosanna* – ibrani dilində *xilas et* deməkdir və nida kimi işlənir.
c **12:15** *Sion qızı* – yəni Yerusəlim əhalisi.
**12:3** *Luka 7:37-38* **12:8** *Qanun. 15:11* **12:13** *Zəb. 118:25-26* **12:15** *Zək. 9:9*

John Lat:Azeri Bible Cyrillic 16.01.2009 12:24 Page 150



yanında olan camaat buna şahid idi.
18Xalq İsanın bu əlaməti göstərdiyini
eşitmişdi, buna görə də Onu qarşıla-
mağa çıxdı. 19Bu səbəbdən fariseylər
bir-birlərinə dedilər: «Baxın əlinizdən
bir iş gəlmir. Artıq aləm Onun ardınca
getdi».

### *İsa öləcəyini əvvəlcədən bildirir*

20Bayramda Yerusəlimə ibadətə
gələnlər arasında bəzi Yunanlar da var
idi. 21Onlar Qalileyanın Bet-Sayda
şəhərindən olan Filipin yanına gəlib
«ağa, biz İsanı görmək istəyirik» deyə
ondan xahiş etdilər. 22Filip gəlib An-
dreyə söylədi, Andrey və Filip də birgə
gəlib İsaya xəbər verdilər. 23İsa cava-
bında dedi: «Bəşər Oğlunun izzətlən-
mək vaxtı gəldi. 24Doğrusunu, doğru-
sunu sizə deyirəm: əgər bir buğda
dənəsi torpağa düşüb ölmürsə, tək
qalır, amma ölürsə, çoxlu məhsul
verir. 25Öz canını sevən kəs onu itirər,
bu dünyada canı üçün qayğı çəkmə-
yənsə onu əbədi həyat üçün qoruyar.
26Kim Mənə xidmət etmək istəsə,
ardımca gəlsin. Mən harada olaca-
ğamsa, Mənim xidmətçim də orada
olacaq. Kim Mənə xidmət etsə, Ata
ona hörmət edəcək.

27İndi ürəyim təlaş keçirir. Nə de-
yim? "Ey Ata, Məni bu andan xilas et"
deyimmi? Lakin Mən elə bu an üçün
gəldim. 28Ey Ata, Öz adını izzətlən-
dir!» Bunun cavabında göydən «Öz
adımı izzətləndirdim, yenə də izzət-
ləndirəcəyəm» deyə bir səs gəldi.
29Orada duran xalqın bir qismi «göy
guruldadı» dedi, başqaları isə «Onun-
la bir mələk danışdı» söylədi. 30İsa ca-
vab verdi: «Bu səs Mənim üçün deyil,
sizin üçün gəldi. 31İndi isə bu dünyaya
hökm veriləcək və bu dünyanın hökm-
darı[a] bayıra atılacaq. 32Mən yerdən
yuxarı qaldırılsam, bütün insanları
Özümə cəzb edəcəyəm». 33İsa bu sözü
söyləməklə necə bir ölümlə öləcəyinə
işarə etdi. 34Xalq Onun cavabında
dedi: «Qanundan eşitdiyimizə görə
Məsih əbədi qalacaq. Bəs Sən niyə
"Bəşər Oğlu yuxarı qaldırılmalıdır"
deyirsən? Bu Bəşər Oğlu kimdir?»
35Onda İsa onlara dedi: «Qısa bir
müddət də nur sizin aranızda olacaq.
Nurunuz olarkən gəzin ki, sizi qaran-
lıq tutmasın. Çünki qaranlıqda gəzən
hara getdiyini bilməz. 36Nurunuz var
ikən nura iman edin ki, nur övladları
olasınız».

### *Xalqın inadkarlığı*

İsa bu sözləri söyləyəndən sonra
gedib onlardan gizləndi. 37Onların
qabağında bu qədər əlamət göstərdiyi
halda yenə Ona iman etmirdilər.
38Bunlar ona görə baş verdi ki, Yeşaya
peyğəmbərin bu sözləri yerinə yetsin:

«Ya Rəbb, xəbərimizə kim inandı,
Rəbbin gücü kimə zühur oldu?»

39Onlar iman edə bilmirdilər, ona görə
ki Yeşaya başqa yerdə deyib:

40«Allah onların gözlərini kor etdi
Və ürəklərini kütləşdirdi ki,
Gözləri ilə görməsinlər,
Ürəkləri ilə anlamasınlar
Və Mənə sarı dönməsinlər ki,
Mən onlara şəfa verim».

41Yeşaya İsanın ehtişamını gördüyü
üçün bu sözləri deyərək Onun barəsin-
də danışıb. 42Bununla bərabər, rəhbər-

---

a **12:31** *Bu dünyanın hökmdarı* – yəni Şeytan.

**12:25** *Mat. 10:39; 16:25; Mark 8:35; Luka 9:24; 17:33* **12:34** *Zəb. 110:4; Yeş. 9:7; Yez. 37:25;* **12:34** *Dan. 7:14* **12:38** *Yeş. 53:1* **12:40** *Yeş. 6:10; Mat. 13:14-15; Mark 4:12; Həv. 28:26-27*

John Lat:Azeri Bible Cyrillic 16.01.2009 12:24 Page 151



lərdən bir çoxu İsaya iman etdi, lakin
sinaqoqdan qovulmasınlar deyə fa-
riseylərə görə bunu açıq bildirmədilər.
**43**Çünki insanlardan izzət qazanmağı
Allahdan izzət almaqdan artıq sevdi-
lər.

**44**İsa nida edib dedi: «Mənə iman
edən Mənə deyil, Məni Göndərənə
iman edir. **45**Məni görən də Məni Gön-
dərəni görür. **46**Mən dünyaya nur olub
gəldim ki, Mənə iman edən hər kəs
qaranlıqda qalmasın. **47**Kim sözlərimi
eşidib onlara riayət etməzsə,[a] Mən onu
mühakimə etmərəm, çünki dünyanı
mühakimə etmək üçün deyil, onu xilas
etmək üçün gəldim. **48**Məni rədd edib
sözlərimi qəbul etməyəni mühakimə
edən bir şey var: bu da Mənim söy-
lədiyim sözdür ki, son gündə onu mü-
hakimə edəcək. **49**Çünki Mən Özüm-
dən söyləmədim, Məni göndərən Ata
nə deyəcəyim və nə söyləyəcəyim
haqqında Mənə əmr verdi. **50**Mən
bilirəm ki, Onun əmri əbədi həyatdır.
Beləcə Mənim söylədiklərimi Ata
Mənə necə dedisə, eləcə də söyləyi-
rəm».

### *İsa şagirdlərinin ayaqlarını yuyur*

13 **1**Pasxa bayramı ərəfəsi idi. İsa
artıq bu dünyadan ayrılıb Ata-
nın yanına gedəcəyi məqamın gəldiyini
bilirdi. O, dünyada Özünə məxsus
olanları həmişə sevmişdi və axıra
qədər də sevdi. **2**Axşam yeməyi
zamanı iblis artıq Ona xəyanət etmək
fikrini Şimon İskaryot oğlu Yəhu-
danın ürəyinə qoymuşdu. **3**İsa Atanın
hər şeyi Onun ixtiyarına verdiyini,
Allahdan gəldiyini və Allahın yanına
qayıdacağını bilirdi. **4**O, süfrədən
qalxıb üst paltarını bir yana qoydu və
bir dəsmal götürüb belinə bağladı.
**5**Sonra ləyənə su töküb şagirdlərin
ayaqlarını yumağa və belinə bağladığı
dəsmalla silməyə başladı. **6**İsa Şimon
Peterə yaxınlaşanda o, İsaya «Ya
Rəbb, Sənmi mənim ayaqlarımı yu-
yacaqsan?» dedi. **7**İsa cavabında ona
dedi: «Mənim nə etdiyimi sən indi
bilməzsən, amma sonra anlayacaq-
san». **8**Peter Ona dedi: «Mənim ayaq-
larımı heç vaxt yumayacaqsan!» İsa
ona cavab verdi: «Əgər səni yumasam,
Mənim yanımda yerin olmaz». **9**Şi-
mon Peter Ona dedi: «Ya Rəbb, təkcə
ayaqlarımı deyil, əllərimi və başımı da
yu». **10**İsa ona dedi: «Çimmiş adam
üçün təkcə ayaqlarını yumaq kifa-
yətdir, çünki başdan-başa təmizdir.
Siz də təmizsiniz, amma hamınız yox».
**11**Çünki Ona kimin xəyanət edəcəyini
bilirdi, buna görə də «hamınız təmiz
deyilsiniz» söylədi.

**12**İsa onların ayaqlarını yuduqdan
sonra paltarını geyindi və yenə süfrəyə
oturaraq onlara dedi: «Mənim sizə nə
etdiyimi bilirsinizmi? **13**Siz Məni
“Müəllim” və “Rəbb” deyə çağırır-
sınız və doğru deyirsiniz, çünki Mən
elə Oyam. **14**İndi ki Mən Rəbb və
Müəllim olduğum halda sizin ayaq-
larınızı yudum, siz də bir-birinizin
ayaqlarını yumalısınız. **15**Çünki sizə
nümunə göstərdim ki, Mənim sizə
etdiyimi siz də bir-birinizə edəsiniz.
**16**Doğrusunu, doğrusunu sizə deyi-
rəm: qul ağasından, elçi də onu göndə-
rəndən üstün deyil. **17**Əgər bu şeyləri
bilib onlara əməl edirsinizsə, bəxtiyar-
sınız.

**18**Hamınız barədə söyləmirəm. Mən

---

a **12:47** *Onlara riayət etməzsə* – bəzi əlyazmalarda *inanmazsa.*

**13:12-15** *Luka 22:27* **13:16** *Mat. 10:24; Luka 6:40; Yəh. 15:20* **13:18** *Zəb. 41:9*

John Lat:Azeri Bible Cyrillic 16.01.2009 12:24 Page 152



Öz seçdiklərimi tanıyıram. Amma qoy
“çörəyimi yeyən Mənə xəyanət etdi”
deyən Müqəddəs Yazı yerinə yetsin.
19İndi bu şeylər baş verməzdən əvvəl
sizə bunları söyləyirəm ki, baş verəndə
inanasınız: O Mənəm. 20Doğrusunu,
doğrusunu sizə deyirəm: Mənim gön-
dərdiyim bir nəfəri qəbul edən şəxs
Məni qəbul edər, Məni qəbul edən də
Məni Göndərəni qəbul edər».

### *Yəhudanın xəyanəti*

*(Mat. 26:20-25; Mark 14:17-21;*
*Luka 22:21-33)*

21İsa bu sözləri söylədikdən sonra
ürəyi təlaşa düşdü və şəhadət edib
dedi: «Doğrusunu, doğrusunu sizə
deyirəm: sizlərdən biri Mənə xəyanət
edəcək». 22Şagirdlər Onun kimin barə-
sində danışdığını bilməyib çaşqınlıq
içində qalaraq bir-birlərinə baxırdılar.
23Şagirdlərindən biri – İsanın sevimli
şagirdi Onun köksünə sığınmışdı.
24Şimon Peter həmin şagirdə işarə etdi
ki, kimin barəsində danışdığını Ondan
soruşsun. 25Həmin şagird İsanın si-
nəsinə əyilərək Ondan soruşdu: «Ya
Rəbb, o kimdir?» 26İsa cavab verdi:
«Bu çörək tikəsini batırıb kimə ver-
səm, odur». Tikəni batırıb Şimon
İskaryot oğlu Yəhudaya verdi. 27Yə-
huda tikəni alan kimi Şeytan onun
içinə girdi. İsa ona «Nə edəcəksənsə,
tez et!» dedi. 28İsanın bunu niyə ona
söylədiyini süfrədə oturanların heç biri
başa düşmədi. 29Pul qutusu Yəhudada
olduğu üçün bəziləri güman etdi ki, İsa
ona «bayrama bizə lazım olan şeyləri
al» yaxud «yoxsullara bir şey ver»
deyir. 30Yəhuda tikəni alan kimi dər-
hal bayıra çıxdı. Artıq gecə idi.

### *Bir-birinizi sevin*

31O çıxandan sonra İsa dedi: «İndi
Bəşər Oğlu izzətləndi və Allah da
Onda izzətləndi. 32İndi ki Allah Onda
izzətləndi, Allah da Onu Özündə
izzətləndirəcək, tezliklə izzətləndirə-
cək. 33Ey övladlarım! Az bir müddət
də sizinlə olacağam. Siz Məni axtara-
caqsınız. Yəhudilərə “Mənim getdiyim
yerə siz gələ bilməzsiniz” dediyim kimi
indi sizə də bunu söyləyirəm. 34Sizə
yeni bir əmr verirəm: bir-birinizi sevin,
Mən sizi sevdiyim kimi siz də bir-
birinizi sevin. 35Əgər bir-birinizə mə-
həbbətiniz olsa, bütün insanlar biləcək
ki, siz Mənim şagirdlərimsiniz».

### *Peterin inkarı barədə peyğəmbərlik*

*(Mat. 26:31-35; Mark 14:27-31;*
*Luka 22:31-34)*

36Şimon Peter İsadan soruşdu: «Ya
Rəbb, hara gedirsən?» İsa cavab verdi:
«Getdiyim yerə indi ardımca gələ
bilməzsən, amma sonra ardımca gələ-
cəksən». 37Peter Ona dedi: «Ya Rəbb,
niyə indi ardınca gələ bilmərəm? Sənin
üçün canımı qurban verərəm». 38İsa
ona dedi: «Mənim üçün canını qurban
verərsənmi? Doğrusunu, doğrusunu
sənə deyirəm: xoruz banlamazdan əv-
vəl sən Məni üç dəfə inkar edəcəksən.

### *İsa Allaha gedən yoldur*

14 1Qoy ürəyiniz təlaşa düşməsin.
Allaha iman edin, Mənə də
iman edin. 2Atamın evində çoxlu məs-
kən var. Əgər olmasaydı, sizə deyər-
dim ki, sizin üçün yer hazırlamağa
gedirəm? 3Gedib sizin üçün yer ha-
zırlayandan sonra yenə gəlib sizi Öz

**13:20** *Mat. 10:40; Mark 9:37; Luka 9:48; 10:16* **13:33** *Yəh. 7:34*
**13:34** *Yəh. 15:12,17; 1Yəh. 3:23; 2Yəh. 5*

John Lat:Azeri Bible Cyrillic 16.01.2009 12:24 Page 153



yanıma götürəcəyəm ki, Mənim oldu-
ğum yerdə siz də olasınız. 4Gedəcəyim
yerə aparan[a] yolu tanıyırsınız».

5Tomas İsaya dedi: «Ya Rəbb, hara
gedəcəyini bilmirik, yolu necə tanıya
bilərik?» 6İsa ona dedi: «Yol, həqiqət
və həyat Mənəm. Mənim vasitəm
olmadan heç kim Atanın yanına gələ
bilməz. 7Əgər Məni tanısaydınız,
Atamı da tanıyardınız. İndidən siz
Onu tanıyırsınız, Onu görmüsünüz».
8Filip Ona dedi: «Ya Rəbb, Atanı bizə
göstər, bu bizim üçün kifayətdir». 9İsa
ona dedi: «Xeyli müddətdir ki, Mən
sizinləyəm, Məni tanımadınmı, Filip?
Məni görən, Atanı görmüş olur. Bəs
sən niyə "Atanı bizə göstər" deyirsən?
10Mənim Atada, Atanın da Məndə
olduğuna inanmırsanmı? Sizə söylə-
diyim sözləri Özümdən söyləmirəm,
Məndə olan Ata Öz işlərini görür.
11Mən Atadayam, Ata da Məndədir,
bu sözümə inanın. Heç olmasa o işlərə
görə inanın. 12Doğrusunu, doğrusunu
sizə deyirəm: Mənə iman edən şəxs
Mənim etdiyim işləri özü də edəcək,
hətta bunlardan da artığını edəcək.
Çünki Mən Atanın yanına gedirəm
13və Mənim adımla hər nə diləsəniz,
onu edəcəyəm ki, Ata Oğulda izzət-
lənsin. 14Əgər Mənim adımla Məndən
bir şey diləsəniz, onu edəcəyəm.

### *Müqəddəs Ruh barədə vəd*

15Əgər Məni sevirsinizsə, əmrlərimə
riayət edəcəksiniz. 16Mən də Atadan
xahiş edəcəyəm və O sizə başqa bir
Vəsatətçi göndərəcək ki, daim sizinlə
olsun. 17O, həqiqət Ruhudur. Onu
dünya qəbul edə bilməz, çünki Onu nə
görür, nə də tanıyır. Sizsə Onu
tanıyırsınız, çünki sizinlə qalır və
daxilinizdə olacaq. 18Sizi yetim qoy-
maram, yanınıza gələcəyəm. 19Az bir
müddətdən sonra dünya daha Məni
görməyəcək, amma siz Məni görə-
cəksiniz. Mən yaşadığım üçün siz də
yaşayacaqsınız. 20O gün biləcəksiniz
ki, Mən Atamdayam, siz Məndəsiniz
və Mən sizdəyəm. 21Kim əmrlərimə
bağlı qalıb onlara riayət edirsə, Məni
sevən odur. Məni sevəni Atam sevə-
cək. Mən də onu sevib Özümü ona
zahir edəcəyəm».

22İskaryot deyil, o biri Yəhuda Ona
dedi: «Ya Rəbb, necə olacaq ki, Özünü
dünyaya deyil, bizə zahir edəcəksən?»
23İsa ona cavab verdi: «Kim Məni
sevsə, sözümə riayət edər, Atam da
onu sevər və Biz onun yanına gəlib
onunla məskən salarıq. 24Məni sevmə-
yənsə sözlərimə riayət etməz. Eşitdiyi-
niz söz Mənim deyil, Məni göndərən
Atanın sözüdür.

25Hələ yanınızda qalarkən sizə bu
sözləri söylədim. 26Lakin Vəsatətçi –
Atanın Mənim adımla göndərəcəyi
Müqəddəs Ruh hər şeyi sizə öyrədəcək
və söylədiyim bütün sözləri yadınıza
salacaq. 27Aranızda sülh qoyub ge-
dirəm, Öz sülhümü sizə verirəm. Mən
onu sizə dünyanın verdiyi kimi ver-
mirəm. Qoy ürəyiniz təlaşa düşməsin
və qorxmayın. 28Sizə "indi gedirəm,
sonra yenə yanınıza gələcəyəm" söy-
lədiyimi eşitdiniz. Əgər Məni sevsəy-
diniz, Atanın yanına gedəcəyimə sevi-
nərdiniz, çünki Ata Məndən üstündür.
29Bunu indi öncədən sizə söylədim ki,
baş verəndə buna inanasınız. 30Daha
sizinlə çox danışmayacağam, çünki bu
dünyanın hökmdarı gəlir. Onun
Mənim üzərimdə heç bir səlahiyyəti
yoxdur. 31Ancaq dünya bilməlidir ki,

a **14:4** *Gedəcəyim yerə aparan* – bəzi əlyazmalarda *Hara gedəcəyimi bilirsiniz və oraya aparan.*

John Lat:Azeri Bible Cyrillic 16.01.2009 12:24 Page 154



Mən Atanı sevirəm və Ata Mənə nə
əmr etdisə, ona əməl edirəm. İndi isə
qalxın buradan gedək.

### *Meynə və budaqlar*

15 **1**Mən həqiqi Meynəyəm, Atam
da Bağbandır. **2**Məndə olub
bəhrə verməyən hər budağı Atam
qoparır. Bəhrə verən hər budağı isə
budayıb təmizləyir ki, daha çox bəhrə
versin. **3**Sizə söylədiyim söz sayəsində
siz artıq təmizsiniz. **4**Məndə qalın,
Mən də sizdə qalım. Budaq meynədə
qalmasa, özündən bəhrə vermədiyi
kimi siz də Məndə qalmasanız, bəhrə
verə bilməzsiniz. **5**Meynə Mənəm,
sizsə budaqlarsınız. Kim Məndə qalsa,
Mən də onda qalsam, çoxlu bəhrə
verər, çünki Mənsiz heç nə edə
bilməzsiniz. **6**Kim Məndə qalmasa,
budaq kimi kənara atılıb quruyar.
Belə budaqlar yığılıb oda atılaraq
yanar. **7**Əgər Məndə qalsanız və
sözlərim sizdə qalsa, nə istəyirsinizsə,
diləyin, sizə veriləcək. **8**Sizin çoxlu
bəhrə verərək Mənim şagirdlərim
olmağınızla Atam izzətlənir. **9**Ata
Məni sevdiyi kimi Mən də sizi sevdim.
Mənim məhəbbətimdə qalın. **10**Əgər
əmrlərimə riayət etsəniz, Mənim mə-
həbbətimdə qalacaqsınız, necə ki Mən
Atamın əmrlərinə riayət edərək Onun
məhəbbətində qalıram.

**11**Bu sözləri sizə söylədim ki, sevin-
cim sizdə olsun və sevinciniz kamil
olsun. **12**Mənim əmrim belədir: Mən
sizi sevdiyim kimi siz də bir-birinizi
sevin. **13**Heç kəsin məhəbbəti dostları
uğrunda canını qurban verən adamın
məhəbbətindən üstün ola bilməz.
**14**Əgər sizə əmr etdiyim şeylərə əməl
etsəniz, siz Mənim dostlarımsınız.
**15**Artıq sizə qul demirəm, çünki qul
ağasının nə etdiyini bilmir. Mən sizə
dost deyirəm, çünki Atamdan eşitdi-
yim bütün sözləri sizə bildirdim. **16**Siz
Məni seçmədiniz, Mən sizi seçib təyin
etdim ki, gedib bəhrə verəsiniz və
bəhrəniz çox qalsın. Beləcə Mənim
adımla Atadan nə diləyirsinizsə, O sizə
verəcək. **17**Beləliklə, sizə əmr edirəm:
bir-birinizi sevin.

### *Dünyanın nifrəti*

**18**Əgər dünya sizə nifrət edərsə,
onda yada salın ki, sizdən əvvəl Mənə
nifrət edib. **19**Əgər dünyadan olsay-
dınız, dünya özündən olan sizləri
sevərdi. Amma siz dünyadan deyil-
siniz, Mən sizi dünyadan seçdim, buna
görə dünya sizə nifrət edir. **20**Mənim
sizə söylədiyim sözü yadınıza salın:
"Qul ağasından üstün deyil". Əgər
Məni təqib etdilərsə, sizi də təqib
edəcəklər, Mənim sözümə riayət
etdilərsə, sizin də sözünüzə riayət
edəcəklər. **21**Lakin bunların hamısını
sizə Mənim adıma görə edəcəklər,
çünki Məni Göndərəni tanımırlar.
**22**Əgər gəlib onlara söyləməsəydim,
günahları olmazdı, amma indi günah-
ları üçün bəhanələri yoxdur. **23**Mənə
nifrət edən Atama da nifrət edir.
**24**Əgər Məndən başqa heç kəsin et-
mədiyi işləri onların arasında etmə-
səydim, günahları olmazdı. Amma
indi Mənim nə etdiyimi gördülər, həm
Mənə, həm də Atama nifrət etdilər.
**25**Lakin bu ona görə baş verdi ki, öz
Qanunlarında yazılan "Mənə nahaq-
dan nifrət etdilər" sözü yerinə yetsin.

**26**Atadan sizə göndərəcəyim Vəsa-

---

**15:12** *Yəh. 13:34; 15:17; 1Yəh. 3:23; 2Yəh. 5* **15:20** *Mat. 10:24; Luka 6:40; Yəh. 13:16*
**15:25** *Zəb. 35:19; 69:4*

John Lat:Azeri Bible Cyrillic 16.01.2009 12:24 Page 155



tətçi – Atanın yanından çıxan həqiqət Ruhu gəldiyi zaman Mənim barəmdə şəhadət edəcək. **27**Siz də şəhadət edəcəksiniz, çünki başlanğıcdan Mənimlə birlikdəsiniz.

**16** **1**Büdrəməyəsiniz deyə bunları sizə söylədim. **2**Sizi sinaqoqlardan qovacaqlar. Hətta o zaman gəlir ki, sizi öldürən hər kəs Allaha xidmət etdiyini zənn edəcək. **3**Onlar bunları edəcəklər, çünki nə Atanı, nə də Məni tanıdılar. **4**İndi bu şeyləri sizə bildirdim ki, vaxtı gələndə sizə söylədiyimi yada salasınız.

### *Müqəddəs Ruhun işi*

Əvvəldən bunları sizə söyləmədim, çünki sizinlə birlikdə idim. **5**İndi isə Məni Göndərənin yanına gedirəm və heç biriniz Məndən "Hara gedirsən?" deyə soruşmur. **6**Amma sizə bu şeyləri söylədiyim üçün ürəyiniz kədərlə doldu. **7**Bununla belə, Mən sizə həqiqəti söyləyirəm: Mənim getməyim sizin xeyrinizədir. Çünki getməsəm, Vəsatətçi yanınıza gəlməz, amma getsəm, Onu sizə göndərəcəyəm. **8**O gələndə günah, salehlik və mühakimə barədə dünyanı ifşa edəcək: **9**günah barədə, çünki Mənə iman etmirlər; **10**salehlik barədə, çünki Atanın yanına gedirəm və daha Məni görməyəcəksiniz; **11**mühakimə barədə, çünki bu dünyanın hökmdarı mühakimə olunub.

**12**Hələ sizə söylənəcək çoxlu sözüm var, amma indi bunlar ağlınıza sığmaz. **13**Lakin O – həqiqət Ruhu gələndə sizə hər həqiqətə yol göstərəcək. Çünki heç nəyi Özündən söyləməyəcək, nə eşidirsə, onu söyləyəcək və gələcəyi sizə bildirəcək. **14**O Məni izzətləndirəcək, çünki Mənim olandan götürüb sizə bildirəcək. **15**Atanın hər nəyi varsa, Mənimdir. Buna görə də "Mənim olandan götürüb sizə bildirəcək" söylədim. **16**Az bir müddətdən sonra Məni artıq görməyəcəksiniz, az bir müddətdən də sonra Məni yenə görəcəksiniz».[a]

### *Kədəriniz sevincə dönəcək*

**17**O vaxt İsanın bəzi şagirdləri bir-birinə dedilər: «"Az bir müddətdən sonra Məni görməyəcəksiniz, az bir müddətdən də sonra yenə görəcəksiniz" və "çünki Atanın yanına gedirəm" sözlərinin mənası nədir?» **18**Öz aralarında soruşurdular: «Söylədiyi "az bir müddət" nə deməkdir? Nə dediyini anlamırıq». **19**İsa Ondan soruşmaq istədiklərini bilib onlara dedi: «"Az bir müddətdən sonra Məni görməyəcəksiniz, az bir müddətdən də sonra yenə görəcəksiniz" sözüm barədəmi bir-birinizdən soruşursunuz? **20**Doğrusunu, doğrusunu sizə deyirəm: siz ağlayıb nalə çəkəcəksiniz, dünya isə sevinəcək; siz kədərlənəcəksiniz, amma kədəriniz sevincə dönəcək. **21**Qadın doğuş zamanı kədərlənər, çünki vaxtı çatıb. Amma uşağı doğandan sonra dünyaya bir insan gətirməyinin sevincinə görə çəkdiyi ağrını yaddan çıxarar. **22**Beləcə siz də indi kədərlisiniz. Lakin Mən sizi yenə görəcəyəm, onda ürəyiniz sevinəcək və heç kəs sevincinizi sizdən ala bilməyəcək. **23**O gün Məndən heç nə soruşmayacaqsınız. Doğrusunu, doğrusunu sizə deyirəm: Mənim adımla Atadan nə diləyirsinizsə, O sizə verəcək.

---

a **16:16** *Görəcəksiniz* – bəzi əlyazmalarda *görəcəksiniz. Çünki Atanın yanına gedirəm.*

John Lat:Azeri Bible Cyrillic 16.01.2009 12:24 Page 156



24İndiyə qədər Mənim adımla heç nə
diləmədiniz. Diləyin, alacaqsınız, ta ki
sevinciniz kamil olsun.

25Sizə bu şeyləri məsəllərlə söylə-
dim. İndi elə bir zaman gəlir ki, daha
məsəllərlə sizinlə danışmayacağam,
amma Ata barədə sizə açıq danışa-
cağam. 26O gün siz Mənim adımla
diləyəcəksiniz. Mən sizin barənizdə
Atadan bir şey xahiş edəcəyimi söy-
ləmirəm. 27Axı Ata Özü sizi sevir,
çünki siz Məni sevdiniz və Mənim
Allahın yanından gəldiyimə inandınız.
28Atanın yanından dünyaya gəldim,
yenə dünyanı tərk edib Atanın yanına
gedirəm».

29Şagirdləri dedi: «Budur, indi açıq
danışırsan, heç bir məsəl söyləmirsən.
30İndi anlayırıq ki, Sən hər şeyi bilir-
sən və heç kəsin Səndən soruşmasına
ehtiyacın yoxdur. Buna görə də Allah-
dan gəldiyinə inanırıq». 31İsa onlara
dedi: «İndi inanırsınızmı? 32Budur,
hər birinizin dağılıb öz evinə gedə-
cəyiniz və Məni tək qoyacağınız vaxt
gəlir və artıq gəlib. Amma Mən tək
deyiləm, çünki Ata Mənimlədir.
33Məndə sülhünüz olsun deyə bunları
sizə söylədim. Dünyada əziyyətiniz
var, amma cəsarətli olun! Mən dün-
yaya qalib gəldim».

### *İsa şagirdləri üçün yalvarır*

17 1İsa bunları söylədikdən sonra
başını göyə qaldırıb dedi: «Ey
Ata, vaxt gəldi; Öz Oğlunu izzətləndir
ki, Oğul da Səni izzətləndirsin. 2Sən
Ona bütün bəşər üzərində səlahiyyət
verdin ki, Ona verdiyin şəxslərin
hamısına əbədi həyat versin. 3Əbədi
həyat da budur ki, Səni – yeganə
həqiqi Allahı və göndərdiyin İsa
Məsihi tanısınlar. 4Mən yerinə yetir-
məyi tapşırdığın işi tamamlamaqla
Səni yer üzündə izzətləndirdim. 5Ey
Ata, dünya yaranmazdan əvvəl Mən
Sənin yanında olarkən malik olduğum
izzəti indi Mənə Öz yanında ver.

6Dünyadan Mənə verdiyin adam-
lara Sənin adını aşkar etdim. Onlar
Səninki idi. Sən onları Mənə verdin və
onlar Sənin sözünə riayət etdilər. 7İndi
də bilirlər ki, Mənə verdiyin bütün
şeylər Səndəndir. 8Çünki Mənə bil-
dirdiyin sözləri onlara bildirdim, onlar
da qəbul etdilər. Sənin yanından çıxıb
gəldiyimi əminliklə bildilər və Məni
Sən göndərdiyinə inandılar. 9Mənim
onlar üçün xahişim var. Dünya üçün
deyil, Mənə verdiyin kəslər üçün
xahişim var, çünki onlar Səninkidir.
10Mənim olan hər şey Sənindir, Sənin
olanlar da Mənimdir və Mən onlarda
izzətlənmişəm. 11Mən artıq dünyada
deyiləm, onlarsa dünyadadır və Mən
Sənin yanına gəlirəm. Ey Müqəddəs
Ata, onları Mənə verdiyin adınla qoru
ki, Bizim kimi bir olsunlar. 12Onlarla
birlikdə olduğum zaman onları Mənə
verdiyin adınla[a] qoruyurdum. Onları
saxladım və Müqəddəs Yazı yerinə
yetsin deyə həlaka gedən adamdan
başqa, onlardan heç biri həlak olmadı.
13İndi isə Sənin yanına gəlirəm.
Dünyada ikən bu sözləri söyləyirəm ki,
Mənim sevincim onlarda kamil olsun.
14Mən onlara Sənin sözünü verdim.
Dünya isə onlara nifrət etdi, çünki
Mən dünyadan olmadığım kimi onlar
da dünyadan deyil. 15Onları dünyadan

a **17:12** *Onlarla birlikdə... adınla* – bəzi əlyazmalarda *Dünyada onlarla birlikdə olduğum zaman Mənə verdiyin kəsləri adınla.*
**17:12** *Zəb. 41:9; Yəh. 13:18*

John Lat:Azeri Bible Cyrillic 16.01.2009 12:24 Page 157



götürməyi deyil, şər olandan qorumağı Səndən xahiş edirəm. 16Mən dünyadan olmadığım kimi onlar da dünyadan deyil. 17Onları həqiqətlə təqdis et. Sənin sözün həqiqətdir. 18Sən Məni dünyaya göndərdiyin kimi Mən də onları dünyaya göndərdim. 19Mən Özümü onların uğrunda təqdis edirəm ki, onlar da həqiqətlə təqdis olunsun.

20Yalnız onlar üçün deyil, onların sözü ilə Mənə iman edənlər üçün də xahiş edirəm ki, 21hamısı bir olsun. Ey Ata, Sən Məndə, Mən də Səndə olduğum kimi onlar da Bizdə olsun[a] ki, dünya Sənin Məni göndərdiyinə inansın. 22Mənə verdiyin izzəti Mən də onlara verdim ki, Biz bir olduğumuz kimi onlar da bir olsun. 23Mən onlarda, Sən də Məndə olmaqla bütünlüklə bir olsunlar ki, dünya Sənin Məni göndərdiyini, Məni sevdiyin kimi onları da sevdiyini bilsin. 24Ey Ata, istəyirəm ki, Mənə verdiyin şəxslər də Mənim olduğum yerdə Mənimlə birlikdə olub Mənim izzətimi görsünlər. Bu izzəti dünya yaranmazdan əvvəl Məni sevdiyin üçün Mənə verdin. 25Ey ədalətli Ata, dünya Səni tanımadı, Mənsə Səni tanıdım, bunlar da Sənin Məni göndərdiyini bildilər. 26Sənin adını onlara bildirdim və yenə bildirəcəyəm ki, Sənin Mənə bəslədiyin məhəbbət onlarda olsun, Mən də onlarda olum».

***İsanın həbs olunması***

*(Mat. 26:47-56; Mark 14:43-50; Luka 22:55-57)*

18 1İsa bunları söylədikdən sonra şagirdləri ilə birgə çıxıb Qidron vadisinin o biri tayına keçdi. Orada bir bağça var idi. İsa və şagirdləri oraya girdilər. 2Ona xəyanət edən Yəhuda da bu yeri tanıyırdı, çünki İsa tez-tez şagirdləri ilə orada yığışırdı. 3Beləcə Yəhuda bir alay əsgərlə başçı kahinlərin və fariseylərin göndərdiyi bəzi mühafizəçiləri götürüb çıraqlar, məşəllər və silahlarla oraya gəldi. 4İsa başına gələcək hər şeyi bildiyi üçün qabağa çıxdı və «Kimi axtarırsınız?» deyə onlardan soruşdu. 5Ona cavab verdilər: «Nazaretli İsanı». İsa onlara «Mənəm» dedi. Ona xəyanət edən Yəhuda da onlarla yanaşı idi. 6İsa onlara «Mənəm» deyəndə geri çəkilib yerə qapandılar. 7Onda yenə «Kimi axtarırsınız?» deyə onlardan soruşdu. Onlar da «Nazaretli İsanı» dedilər. 8İsa cavab verdi: «Sizə dedim ki, Mənəm. Əgər Məni axtarırsınızsa, yanımdakıları buraxın getsinlər». 9Bunu etdi ki, əvvəlcə dediyi «Mənə verdiyin şəxslərin heç birini həlak olmağa qoymadım» sözü yerinə yetsin. 10Şimon Peterin yanında qılınc var idi. Onu çəkib baş kahinin qulunu vuraraq sağ qulağını kəsdi. O qulun adı Məlik idi. 11Onda İsa Peterə dedi: «Qılıncı qınına qoy! Atanın Mənə verdiyi kasanı[b] içməyimmi?»

12Beləcə minbaşı ilə alay və Yəhudi başçılarının mühafizəçiləri İsanı tutub əl-qolunu bağladılar. 13Onu əvvəlcə Xananın yanına apardılar, çünki Xanan o il baş kahin olan Qayafanın qayınatası idi. 14Bu həmin Qayafa idi ki, «bir Adamın xalq uğrunda ölməsi yaxşıdır» deyə Yəhudi başçılarına məsləhət vermişdi.

a **17:21** *Olsun* – bəzi əlyazmalarda *bir olsun.*

b **18:11** *Kasa* – İsanın çarmıxdakı ölümünün rəmzidir.

**18:11** *Mat. 26:39; Mark 14:36; Luka 22:42* **18:14** *Yəh. 11:49-50*

John Lat:Azeri Bible Cyrillic 16.01.2009 12:24 Page 158



### *Peterin ilk inkarı*

*(Mat. 26:69-70; Mark 14:66-68;*
*Luka 22:55-57)*

**15**Şimon Peter və başqa bir şagird
İsanın ardınca gedirdilər. Baş kahin
həmin şagirdi tanıdığı üçün o, İsa ilə
birlikdə baş kahinin həyətinə girdi.
**16**Peter isə bayırda qapının yanında
durmuşdu. O vaxt baş kahinin ta-
nıdığı bu şagird bayıra çıxıb qapıçı
qızla danışdı və Peteri içəri gətirdi.
**17**Bu arada qapıçı qız Peterdən
soruşdu: «Yoxsa sən də bu Adamın
şagirdlərindənsən?» O isə «xeyr,
deyiləm» dedi. **18**Soyuq olduğu üçün
qullar və mühafizəçilər orada ocaq
qalamışdılar və ətrafında dayanıb
isinirdilər. Peter də onlarla yanaşı
dayanıb isinirdi.

### *Baş kahinin yanında sorğu-sual*

*(Mat. 26:59-66; Mark 14:55-64;*
*Luka 22:66-71)*

**19**O vaxt baş kahin İsadan şagird-
ləri və təlimi barədə soruşdu. **20**İsa
ona cavab verdi: «Mən dünyaya açıq
söyləmişəm, Yəhudilərin hamısının
toplaşdıqları sinaqoqlarda və məbəd-
də həmişə təlim öyrədirdim, Mən heç
nəyi gizli söyləməmişəm. **21**Niyə Mən-
dən soruşursan? Nə dediyimi eşidən
adamlardan soruş. Axı onlar Mənim
söylədiyim şeyləri bilirlər». **22**İsa bu
sözləri söyləyəndən sonra orada
duran mühafizəçilərdən biri «Baş
kahinə beləmi cavab verirsən?» deyib
Ona bir şillə vurdu. **23**İsa ona cavab
verdi: «Əgər haqsız danışdımsa,
haqsız olduğunu sübut et. Əgər doğru
dedimsə, onda Məni nə üçün vurur-
san?» **24**Xanan Onu əl-qolu bağlı
halda baş kahin Qayafanın yanına
göndərdi.

### *Peterin ikinci və üçüncü inkarı*

*(Mat. 26:71-75; Mark 14:69-72;*
*Luka 22:58-62)*

**25**Şimon Peter bayırda durub isinir-
di. Ondan soruşdular: «Yoxsa sən də
Onun şagirdlərindənsən?» O inkar
edib «xeyr, deyiləm» söylədi. **26**Baş
kahinin qullarından biri Peterin vurub
qulağını kəsdiyi adamın qohumu idi.
Həmin qul «Səni bağçada Onunla
birlikdə görmədimmi?» deyə Peterdən
soruşdu. **27**Peter yenə inkar etdi.
Həmin anda xoruz banladı.

### *İsa vali Pilatın önündə*

*(Mat. 27:1-2,11-31; Mark 15:1-20;*
*Luka 23:3-5,13-25)*

**28**Sonra Yəhudi başçıları İsanı
Qayafanın yanından vali sarayına
apardılar. Səhər açılırdı. Amma özləri
vali sarayına girmədilər ki, murdar
olmasınlar və Pasxa yeməyini yeyə
bilsinlər. **29**Ona görə də Pilat bayıra,
onların yanına çıxıb dedi: «Bu Adamı
nədə ittiham edirsiniz?» **30**Onlar Pilata
cavab verdilər: «Əgər bu Adam cina-
yətkar olmasaydı, Onu sənə təslim
etməzdik». **31**Pilat onlara dedi: «Onu
siz götürüb öz Qanununuza görə
mühakimə edin». Yəhudi başçıları
Pilata dedi: «Bizim heç kəsi edam et-
məyə icazəmiz yoxdur». **32**Onlar belə
dedilər ki, İsanın necə bir ölümlə öləcə-
yinə işarə edərək söylədiyi söz yerinə
yetsin.

**33**Pilat yenə vali sarayına girdi,
İsanı çağırıb Ona dedi: «Yəhudilərin
Padşahı Sənsənmi?» **34**İsa cavab verdi:
«Sən bunu özündənmi söyləyirsən,

---

**18:32** *Yəh. 3:14; 12:32*

John Lat:Azeri Bible Cyrillic 16.01.2009 12:24 Page 159



yoxsa başqaları sənə Mənim barəmdə
danışdılar?» **35**Pilat dedi: «Məgər mən
Yəhudiyəm? Səni Öz millətin və başçı
kahinlər mənə təslim etdi. Söylə, nə
etmisən?» **36**İsa cavab verdi: «Mənim
Padşahlığım bu dünyadan deyil. Əgər
Mənim Padşahlığım bu dünyadan
olsaydı, xidmətçilərim Yəhudi başçıla-
rına təslim edilməməyim üçün döyü-
şərdi, amma indi Mənim Padşahlığım
buradan deyil». **37**Pilat ona dedi:
«Deməк, Sən Padşahsan?» İsa cavab
verdi: «Sənin dediyin kimi Mən Pad-
şaham. Mən həqiqət barədə şəhadət
etmək üçün doğulub dünyaya gəldim.
Həqiqətdən olan hər kəs Mənim sə-
simə qulaq asar». **38**Pilat Ona «Həqi-
qət nədir?» dedi.

Bunu deyəndən sonra yenə bayıra,
Yəhudilərin yanına çıxıb onlara dedi:
«Mən Onda heç bir təqsir görmürəm.
**39**Axı sizdə bir adətdir ki, Pasxa
zamanı mən sizin üçün bir nəfəri azad
edirəm. İndi istəyirsinizsə, sizin üçün
Yəhudilərin Padşahını azad edim?»
**40**Bunun cavabında onlar yenə bağırıb
dedi: «Bu adamı yox, Barabbanı azad
et!» Barabba isə bir quldur idi.

### *İsanın ölümə məhkum edilməsi*

**19** **1**Onda Pilat İsanı aparıb qam-
çılatdı. **2**Əsgərlər də tikandan
bir tac hörüb Onun başına qoydular və
Ona tünd qırmızı paltar geyindirdilər.
**3**Onlar İsanın yanına gəlib «Yəhu-
dilərin Padşahı sağ olsun!» deyirdilər
və Ona şillə vururdular. **4**Pilat yenə
bayıra çıxıb Yəhudilərə dedi: «Budur,
Onu bayıra, sizin yanınıza gətirirəm
ki, Onda bir təqsir görmədiyimi bilə-
siniz». **5**O zaman İsa başında tikandan
tac, əynində tünd qırmızı paltar bayıra
çıxdı. Pilat onlara dedi: «O Adam
budur!» **6**Başçı kahinlər və mühafizə-
çilər Onu gördükdə «Çarmıxa çək,
çarmıxa çək!» deyə bağırdılar. Pilat
onlara dedi: «Onu özünüz götürüb
çarmıxa çəkin, çünki mən Onda bir
təqsir görmürəm». **7**Yəhudilər ona
cavab verdilər: «Bizim bir qanunumuz
var, bu qanuna görə O ölməlidir, çünki
Özünü Allahın Oğlu adlandırır».

**8**Pilat bu sözü eşidəndə daha da
qorxdu. **9**Yenə vali sarayına girib
İsadan soruşdu: «Sən haradansan?»
Amma İsa ona cavab vermədi. **10**Pilat
Ona dedi: «Mənəmi cavab vermirsən?
Bilmirsən ki, Səni azad etməyə yaxud
çarmıxa çəkməyə səlahiyyətim var?»
**11**İsa ona cavab verdi: «Əgər sənə
yuxarıdan verilməsəydi, Mənim üzə-
rimdə heç bir səlahiyyətin olmazdı.
Buna görə də Məni sənə təslim edənin
günahı daha böyükdür». **12**Bundan
sonra Pilat Onu azad etməyə çalışdı,
ancaq Yəhudilər bağırıb dedilər:
«Əgər bu Adamı azad etsən, qeysərin
dostu deyilsən. Kim özünü padşah
elan edirsə, qeysərə qarşı çıxmış
olur».

**13**Pilat bu sözü eşitdikdə İsanı bayı-
ra apardı və ibranicə Qabbata, yəni
Daş döşəmə deyilən yerdə hökm
kürsüsünə oturdu. **14**Pasxaya hazırlıq
günü idi. Altıncı saat[a] radələri idi.
Pilat Yəhudilərə «Padşahınız budur!»
dedi. **15**Amma onlar «Yox, rədd olsun,
rədd olsun! Onu çarmıxa çək!» deyə
bağırdı. Pilat onlardan soruşdu: «Pad-
şahınızımı çarmıxa çəkim?» Başçı
kahinlər cavab verdilər: «Qeysərdən
başqa padşahımız yoxdur!» **16**Onda
Pilat İsanı çarmıxa çəkilmək üçün on-
lara təslim etdi.

a **19:14** *Altıncı saat* – hazırkı vaxtla günorta saat on iki.

John Lat:Azeri Bible Cyrillic 16.01.2009 12:24 Page 160



### *İsanın çarmıxa çəkilməsi*

*(Mat. 27:32-44; Mark 15:21-32;*
*Luka 23:24-43)*

Əsgərlər İsanı götürüb apardılar.
**17**İsa çarmıxını Özü daşıyaraq ib-
ranicə Qolqota, yəni «Kəllə yeri»
adlanan yerə çıxdı. **18**Orada Onu və
başqa iki nəfəri çarmıxa çəkdilər: biri
İsanın sağında, o biri isə solunda idi,
İsa da ortada idi. **19**Pilat bir lövhə
yazıb onu çarmıxın üstündə asdırdı.
Orada belə yazılmışdı: «Yəhudilərin
Padşahı Nazaretli İsa». **20**Yəhudilərin
bir çoxu bu lövhəni oxudu, çünki
İsanın çarmıxa çəkildiyi yer şəhərə
yaxın idi və lövhədə ibranicə, latınca
və yunanca yazılmışdı. **21**Bunu görüb
Yəhudi başçı kahinləri Pilata dedilər:
«“Yəhudilərin Padşahı” yox, “Özünü
Yəhudilərin Padşahı adlandıran”
yaz». **22**Pilat cavab verdi: «Nə yaz-
dımsa, yazdım».

**23**Əsgərlər İsanı çarmıxa çəkdikləri
zaman Onun paltarlarını götürüb hər
əsgər üçün bir pay olmaqla dörd his-
səyə böldülər. Tikişsiz və başdan-aya-
ğa toxunma olan köynəyini götürdü-
lər. **24**Onlar bir-birinə dedilər: «Bunu
cırmayaq, püşk ataq, görək kimin
olur». Müqəddəs Yazıdakı

«Aralarında paltarlarımı
bölüşdürdülər,
Geyimim üçün püşk atdılar»

sözü yerinə yetsin deyə əsgərlər bunu
etdilər.

**25**İsanın çarmıxı yanında anası,
anasının bacısı, Klopanın arvadı
Məryəm və Məcdəlli Məryəm dayan-
mışdı. **26**İsa anasını və onun yanında
Öz sevimli şagirdinin dayandığını gör-
dükdə anasına dedi: «Ana, bu sənin
oğlundur!» **27**Sonra isə şagirdə dedi:
«Bu da sənin anandır!» Həmin andan
sonra şagird onu öz evinə apardı.

### *İsanın ölümü*

*(Mat. 27:45-56; Mark 15:33-41;*
*Luka 23:44-49)*

**28**Daha sonra İsa hər şeyin artıq
tamam olduğunu bilərək Müqəddəs
Yazı tam yerinə yetsin deyə «Susa-
dım!» dedi. **29**Orada şərab sirkəsi ilə
dolu bir qab qoyulmuşdu. Bir süngəri
şərab sirkəsinə batıraraq züfaya taxıb
İsanın ağzına yaxınlaşdırdılar. **30**İsa
şərab sirkəsini daddı. Sonra «tamam
oldu» dedi və başını əyib ruhunu
tapşırdı.

**31**Hazırlıq günü olduğuna görə Yə-
hudi başçıları Pilatdan çarmıxa çəki-
lənlərin baldırlarının qırılmasını və
cəsədlərin götürülməsini xahiş etdilər.
Onlar cəsədlərin Şənbə günü çarmıxda
qalmasını istəmirdilər, çünki o Şənbə
günü böyük bir bayram idi. **32**Onda
əsgərlər gəlib əvvəl İsa ilə çarmıxa
çəkilən bir adamın, sonra isə o biri
adamın baldırlarını qırdılar. **33**İsanın
yanına gələndə isə Onun artıq öl-
düyünü görüb baldırlarını qırmadılar.
**34**Amma əsgərlərdən biri Onun böy-
rünü nizə ilə deşdi, o anda oradan qan
və su axdı. **35**Bunu görən adam özü
şəhadət edir və onun şəhadəti doğ-
rudur, sizin də iman etməyiniz üçün
həqiqəti söylədiyini bilir. **36**Bunlar ona
görə oldu ki, Müqəddəs Yazıdakı
«Onun bir sümüyü də qırılmayacaq»
sözü yerinə yetsin. **37**Yenə başqa bir
Yazıda «bədənini deşdikləri Şəxsə
baxacaqlar» deyilir.

---

**19:24** *Zəb. 22:18* **19:28** *Zəb. 22:15; 69:21* **19:36** *Çıx. 12:46, Say. 9:12, Zəb. 34:20*
**19:37** *Zək. 12:10; Vəhy 1:7*

John Lat:Azeri Bible Cyrillic 16.01.2009 12:24 Page 161



### *İsanın dəfni*

*(Mat. 27:57-61; Mark 15:42-47;
Luka 23:50-56)*

38Bundan sonra Arimateyalı Yusif
Pilatdan İsanın cəsədini götürməyi
xahiş etdi. Yusif İsanın şagirdi idi,
amma Yəhudi başçılarından qorxdu-
ğu üçün bunu gizli saxlayırdı. Pilat
ona izin verdi və Yusif gəlib İsanın
cəsədini götürdü. 39Vaxtı ilə gecə ikən
İsanın yanına gələn Nikodim də gəlib
yüz litraya[a] qədər qarışıq mirra və
əzvay gətirdi. 40İsanın cəsədini gö-
türüb Yəhudilərin dəfn adətinə uyğun
olaraq ətirlərlə birgə kətan bezlərə sa-
rıdılar. 41İsanın çarmıxa çəkildiyi
yerdə bir bağça, bu bağçanın içində də
hələ heç kəsin qoyulmadığı təzə bir
qəbir var idi. 42Qəbir yaxında oldu-
ğuna görə İsanın cəsədini oraya
qoydular, çünki o gün Yəhudilərin
Hazırlıq günü idi.

### *İsanın dirilməsi*

*(Mat. 28:1-8; Mark 16:1-8; Luka 24:1-12)*

20 1Həftənin ilk günü[b] tezdən, hələ
qaranlıq ikən Məcdəlli Mər-
yəm qəbirin yanına gəldi. O gördü ki,
daş qəbirin ağzından götürülüb.
2Onda qaçıb Şimon Peterlə İsanın
sevimlisi olan o biri şagirdin yanına
gəldi və onlara dedi: «Rəbbi qəbirdən
aparıblar və hara qoyulduğunu
bilmirik». 3Peterlə o biri şagird bayıra
çıxıb qəbirə tərəf getdilər. 4İkisi birgə
qaçırdı, amma o biri şagird Peterdən
daha cəld qaçdı və qabaqca qəbirə o
çatdı. 5Əyilib içəri baxdı və kətan
bezlərin düşüb-qaldığını gördü, ancaq
içəri girmədi. 6O vaxt onun ardınca
Şimon Peter də gəlib qəbirə girdi. O,
düşüb-qalan kətan bezləri 7və İsanın
başına qoyulmuş dəsmalı gördü.
Dəsmal kətan bezlərin yanında deyil,
başqa bir yerdə bükülü qalmışdı.
8Onda qəbirin yanına qabaqca gələn o
biri şagird də içəri girib bunları gördü
və iman etdi. 9Çünki onlar İsanın müt-
ləq ölülər arasından diriləcəyini bildi-
rən Müqəddəs Yazını hələ anlamırdı-
lar. 10Beləcə şagirdlər yenə evlərinə
qayıtdılar.

### *İsanın Məcdəlli Məryəmə görünməsi*

*(Mat. 28:9-10; Mark 16:9-11)*

11Məryəm isə ağlayaraq qəbirin
bayırında dayanmışdı. Ağlaya-ağlaya
əyilib qəbirin içinə baxdı. 12Orada ağ
paltar geymiş iki mələk gördü: biri
İsanın cəsədinin qoyulduğu yerin ba-
şında, o biri isə ayağında oturmuşdu.
13Onlar Məryəmdən «Ey qadın, niyə
ağlayırsan?» deyə soruşdu. Məryəm də
onlara dedi: «Rəbbimi qəbirdən
aparıblar və hara qoyduqlarını bilmi-
rəm». 14Bunu deyəndən sonra arxaya
dönüb İsanın orada dayandığını gör-
dü, amma Onun İsa olduğunu bil-
mədi. 15İsa ondan soruşdu: «Ey qadın,
niyə ağlayırsan? Kimi axtarırsan?»
Məryəm Onun bağban olduğunu gü-
man edərək dedi: «Ağa, əgər Onu Sən
aparmısansa, hara qoyduğunu mənə
söylə, mən də Onu götürüm». 16İsa
ona «Məryəm!» dedi. O da dönüb
İsaya ibranicə «Rabbuni!» dedi.
«Rabbuni» «Müəllim» deməkdir.
17İsa ona dedi: «Mənə toxunma, çünki
Mən hələ Atanın yanına qalxma-
mışam. Amma qardaşlarımın yanına
gedib onlara söylə: Öz Atamın – sizin

---

a **19:39** *Yüz litra* – təqribən 30 kq.
b **20:1** *Həftənin ilk günü* – yəni bazar günü.

**19:39** *Yəh. 3:1-2*

John Lat:Azeri Bible Cyrillic 16.01.2009 12:24 Page 162



Atanızın, Öz Allahımın – sizin Al-
lahınızın yanına qalxıram». 18Məcdəlli
Məryəm şagirdlərin yanına gəldi,
onlara «Rəbbi görmüşəm!» deyib
onun özünə bunları söylədiyini bil-
dirdi.

### *İsanın şagirdlərinə görünməsi*

*(Mat. 28:16-20; Mark 16:14-18;*
*Luka 24:36-49)*

19O gün – həftənin ilk günü axşam
çağı Yəhudi başçılarından qorxduq-
ları üçün şagirdlərin olduqları yerin
qapıları bağlı olsa da, İsa içəri girdi. O
ortada durub onlara «Sizə salam
olsun!» dedi. 20Bunu söyləyib onlara
əllərini və böyrünü göstərdi. Şagirdlər
də Rəbbi görüb sevindilər. 21İsa yenə
onlara dedi: «Sizə salam olsun! Ata
Məni göndərdiyi kimi Mən də sizi
göndərirəm». 22Bunu söylədikdən
sonra onların üzərinə üfürərək dedi:
«Müqəddəs Ruhu alın! 23Kimin gü-
nahlarını bağışlasanız, bağışlanır,
kimin günahlarını bağışlamasanız,
bağışlanmamış qalır».

### *İsanın Tomasa görünməsi*

24Lakin On İki şagirddən biri
«Əkiz» adlanan Tomas İsa gələndə
onların yanında deyildi. 25O biri
şagirdlər Tomasa «Rəbbi gördük»
deyəndə onlara söylədi: «Əgər Onun
əllərində mıxların açdığı yaraları
görməsəm, mıxların yerinə barmağım-
la toxunmasam, böyrünə də əlimi
qoymasam, buna heç inanmaram».
26Səkkiz gündən sonra İsanın şagird-
ləri yenə otaqda toplaşanda Tomas da
onların yanında idi. Qapılar bağlı olsa
da, İsa içəri girdi. O ortada durub
«Sizə salam olsun!» dedi. 27Bundan
sonra Tomasa söylədi: «Barmağını bu-
raya uzat, əllərimə bax, əlini də uzat,
böyrümə qoy. İmansız olma, imanlı
ol!» 28Tomas cavab verib Ona «Ya
Rəbbim və Allahım!» dedi. 29İsa ona
dedi: «Sən Məni gördüyün üçünmü
iman etdin? Görmədən iman edənlər
nə bəxtiyardır!»

30İsa şagirdlərinin gözü önündə bir
çox başqa əlamətlər də göstərdi ki, bu
kitabda yazılmayıb. 31Amma burada-
kılar onun üçün yazılıb ki, siz İsanın
Məsih – Allahın Oğlu olduğuna ina-
nasınız və iman edərək Onun adı ilə
həyata malik olasınız.

### *İsa göl kənarında*

21 1Bu hadisələrdən sonra İsa
Tiberiya gölünün kənarında
yenə şagirdlərə göründü. Bu belə oldu:
2Şimon Peter, «Əkiz» adlanan Tomas,
Qalileyanın Qana kəndindən olan
Natanael, Zavdayın oğulları və Onun
başqa iki şagirdi birlikdə idi. 3Şimon
Peter onlara «balıq ovuna gedirəm»
dedilər. O birilər də ona «biz də sə-
ninlə gedirik» dedi. Onlar gedib qayı-
ğa mindilər, amma o gecə bir şey tuta
bilmədilər. 4Günəş doğarkən İsa sahil-
də dayanmışdı, amma şagirdlər Onun
İsa olduğunu bilmədilər. 5İsa onlara
dedi: «Uşaqlar, yeməyə bir şey tut-
musunuzmu?» Ona «xeyr» deyə cavab
verdilər. 6İsa yenə dedi: «Toru qayığın
sağ tərəfinə atın, orada tapacaqsınız».
Eləcə də atdılar və o qədər balıq
tutdular ki, toru çəkə bilmirdilər.
7Onda İsanın sevimli şagirdi Peterə
«Bu, Rəbdir» söylədi. Şimon Peter
Onun Rəbb olduğunu eşidən kimi
əynindən çıxartdığı üst paltarına
bürünüb gölə atıldı. 8O biri şagirdlər

**20:23** *Mat. 16:19; 18:18* **21:3** *Luka 5:5* **21:6** *Luka 5:6*

John Lat:Azeri Bible Cyrillic 16.01.2009 12:24 Page 163



isə balıq torunu çəkə-çəkə qayıqda
gəldilər, çünki sahildən uzaq deyil-
dilər, cəmi iki yüz qulac[a] məsafədə
idilər.

**9**Onlar quruya çıxanda orada kö-
zərmiş ocağı, onun üzərinə qoyulmuş
balığı və yanında olan çörəyi gördülər.
**10**İsa onlara dedi: «İndi tutduğunuz
balıqlardan gətirin». **11**Şimon Peter
qayığa minib yüz əlli üç böyük balıqla
dolu toru quruya çəkdi. Balıq lap çox
olsa da, tor yırtılmadı. **12**İsa onlara
dedi: «Gəlin, səhər yeməyi yeyin».
Şagirdlərdən heç biri Ondan «Sən
kimsən?» deyə soruşmağa cəsarət
etmirdi, çünki Onun Rəbb olduğunu
bilirdilər. **13**İsa gəlib çörəyi götürdü və
onlara verdi, eləcə balığı da verdi.
**14**İsa ölülər arasından dirildikdən
sonra artıq üçüncü dəfə idi ki, şagird-
lərə görünürdü.

### *İsanın Peterlə söhbəti*

**15**Səhər yeməyindən sonra İsa
Şimon Peterə dedi: «Ey Yəhya oğlu
Şimon, Məni bunlardan çox sevir-
sənmi?» Peter ona dedi: «Bəli, ya
Rəbb, Səni sevdiyimi bilirsən». İsa ona
dedi: «Quzularımı bəslə». **16**İkinci dəfə
yenə Peterə dedi: «Ey Yəhya oğlu
Şimon, Məni sevirsənmi?» O da İsaya
dedi: «Bəli, ya Rəbb, Səni sevdiyimi
bilirsən». İsa ona dedi: «Quzularımı
otar». **17**Üçüncü dəfə Peterə dedi: «Ey
Yəhya oğlu Şimon, Məni sevirsənmi?»
Peter üçüncü dəfə İsanın ona «Məni
sevirsənmi?» sualını verməyinə kədər-
ləndi və Ona dedi: «Ya Rəbb, Sən hər
şeyi bilirsən, Səni sevdiyimi bilirsən».
İsa ona dedi: «Quzularımı bəslə.
**18**Doğrusunu, doğrusunu sənə deyi-
rəm: cavan olanda qurşağını özün bağ-
layıb istədiyin yerə gedərdin, amma
qocalanda əllərini uzadacaqsan və
başqası sənin qurşağını bağlayıb is-
təmədiyin yerə aparacaq». **19**İsa bunu
ona görə söylədi ki, Peterin necə öz
ölümü vasitəsilə Allahı izzətləndirəcə-
yinə işarə etsin. Bunu söylədikdən
sonra ona «ardımca gəl» dedi.

**20**Peter də arxaya dönüb İsanın se-
vimli şagirdinin onların ardınca gəldi-
yini gördü. Bu həmin şagird idi ki,
axşam yeməyi zamanı İsanın sinəsinə
əyilib «Ya Rəbb, Sənə xəyanət edəcək
adam kimdir?» demişdi. **21**Peter bu
şagirdi görüb İsaya dedi: «Ya Rəbb,
bəs o necə olacaq?» **22**İsa ona dedi:
«Əgər Mən gələnə qədər onun sağ
qalmasını istəyirəmsə, bundan sənə
nə? Sən ardımca gəl». **23**Beləcə o şa-
girdin ölməyəcəyi barədə imanlı bacı-
qardaşlar arasında söz yayıldı. Amma
İsa onun ölməyəcəyini deməmişdi,
sadəcə olaraq «Əgər Mən gələnə qədər
onun sağ qalmasını istəyirəmsə, bun-
dan sənə nə?» demişdi.

**24**Bu hadisələrə şəhadət edərək
bunları yazan həmin şagirddir. Biz də
bilirik ki, onun şəhadəti etibarlıdır.

**25**İsanın etdiyi çoxlu başqa şeylər də
var. Əgər bunlar da bir-bir yazılsaydı,
fikrimcə, yazılan kitablar heç dünyaya
sığmazdı.

---

a **21:8** *İki yüz qulac* – təqribən 100 m.
**21:20** *Yəh. 13:25*